**EVDƏ QAL, SAĞLAM QAL!**



**Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq**

Bax 5



**ÜST Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirib**

Bax 9



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 080 (6045) 13 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışı olub




Bax 6

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

## Ombudsman: "Ermənistanın insan azadlıqlarından danışması gülüncdür"

*"Bəşəriyyətin mütərəqqi dəyərlərini mənimsəmək iqtidarında olmayan, adı işğalçı siyasət və dövlət terrorizmi anlayışları ilə assosiasiya olunan Ermənistanın insan hüquq və azadlıqlarının qorunmasından danışması gülünc, absurd və paradoksaldır". SİA xəbər verir ki, bunu Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib. Ermənistanın Ombudsmanının azərbaycanlı həmkarı ilə görüşməyə...*



Bax 9




## "Barselona" bu futbolçuya 50 milyon avro qiymət qoydu!

"Barselona" satmağa hazırlaşdığı futbolçusu Nelson Semeduya qiymət qoyub. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, Kataloniya klubu portuqaliyalı müdafiəçini 50 milyon avroya satmağı planlaşdırır. Onunla "İnter", "Mançester Siti", "Bavariya" və PSJ-nin maraqlandığı bildirilir. Qeyd edək ki, Semedunun "Barselona" ilə müqaviləsi 2022-ci ilin iyununda başa çatır.

Bax 16

## Azərbaycanda daha 104 nəfər koronavirusa yoluxdu

Azərbaycan Respublikasında 104 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya bildirilib...



Bax 9

## Nikolun faşist şəcərəsi

Bax 10

*Əslində, faşizm ideologiyası uzun illərdir ki, Ermənistanın dövlət siyasətinin prioritetini təşkil edir. İşğalçı ölkənin, eləcə də, erməni diasporunun maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda çoxsaylı insan tələfatı ilə nəticələnən...*



**Dövlət Təhlükəsizliyi Xidməti Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin hüquqazidd əməlləri ilə bağlı məlumat yayıb**



Bax 12

**Resurs Analitik İnformasiya Mərkəzinin saytı fəaliyyətə başladı**



Bax 10

**Bloger və siyasi bürokratlar**



Bax 14

# İlham Əliyev: “9 May - bizim ümumi Böyük Qələbə günümüzdür”

*Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir*

***Rusiyanın nüfuzlu “Natsionalnaya oborona” (“Milli müdafiə”) jurnalının may buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc olunub. Qeyd edək ki, bu jurnal Rusiyada və beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malikdir.***

Müəllifi İqor Korotçenko olan müsahibəni AZƏRTAC təqdim edir.

***- İlham Heydər oğlu, qarşıdan Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi gəlir. Bu ümumi Qələbəyə Azərbaycanın töhfəsi nədən ibarət olub, Azərbaycanda yaşayan Böyük Vətən müharibəsi iştirakçılarını necə şərəfləndirmək planlaşdırılır?***






**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qələbə Günündə Böyük Vətən müharibəsi veteranları ilə görüşdə.**

- Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi yaxınlaşır. Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk.

Azərbaycan bizim ümumi qələbəmizə böyük töhfə verib. Azərbaycanın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onlardan 300 mini həlak olub, 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır, bizim 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Qızıl Ordu üçün neftin 70 faizini, yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edib, bunlar olmasaydı, müharibədə qalib gəlmək mümkün olmazdı. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa can atırdı. Yeri gəlmişkən, mən bu barədə 2019-cu ilin oktyabrında MDB-nin Aşqabad Sammitində demişdim: məlum kadrlar var, orada Hitlerə üzərində alman dilində “Xəzər dənizi” sözləri yazılmış tort verirlər (Xəzər dənizinin sərhədlərinə qara rəngli şokolad süzülüb), o, svastikanı əlinə götürür və “Bakı” sözü yazılmış yerə qoyur. Bu, faşistlərin Azərbaycanın neft yataqlarını tutmaq planını vurğulayır.

Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur “Katyuşa” raketləri istehsal edilirdi.

Azərbaycan elminin nümayəndələri də bizim ümumi qələbəmizə sanballı töhfə veriblər. Bunu bilən azdır, amma böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan “Molotov kokteyli” adı ilə məşhurlaşmış yandırıcı qarışıq ixtira etmişdi.

Azərbaycanda formalaşdırılmış 416-cı Qırmızı Bayraqlı Taqanroq diviziyası Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçib. Böyük Vətən müharibəsi cəbhələrində ləyaqətlə döyüşən, Azərbaycanın bayrağını uca tutan, xalqımıza xas olan vətənpərvərlik, cəsarət, doğma torpağın müdafiəsində dönməzlik kimi ən yaxşı keyfiyyətləri nümayiş etdirən bu diviziyanın döyüşçülərinin igidliyi və şücaəti ilə ölkəmizdə fəxr edirlər.




*Azərbaycan Ordusunun möhkəmlənməsi, onun döyüş qüdrətinin və texniki təchizatının yüksəldilməsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyətində ən mühüm prioritetlərdən biridir.*

Bu ilin mart ayında Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılığı ilə nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Onlarla görüş zamanı mənə 1980-ci ildə o dövrdə Azərbaycanın rəhbəri olmuş ümummilli lider Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr edilmiş bir videoalbom verdilər.

Heydər Əliyev həmin səfər zamanı Rostov vilayətinin faşizmdən azad edilməsinin rəmzi olan və müstəsna igidliklər göstərmiş 130-cu və 416-cı Azərbaycan atıcı diviziyalarının əsgərlərinin qəhrəmanlığına həsr edilmiş “Sambek yüksəklikləri” memorialının açılışında iştirak edib.

İndi həmin memorialın yanında “Sambek yüksəklikləri” adlı xalq hərbi-tarixi muzey kompleksi yaradılır. O görüşdə qeyd edilmişdi ki, bu il həmin kompleksin açılışı planlaşdırılır. Rusiya tərəfinin 416-cı Taqanroq diviziyasının əsgər və zabitlərinin xatirəsini və igidliklərini ehtiramla yad etməsini biz çox yüksək qiymətləndiririk.

Bu gün Böyük Vətən müharibəsi veteranları Azərbaycanda dövlət tərəfindən böyük dəstək alır. Biz onların qəhrəmanlığını həmişə xatırlayırıq. Hər il mayın 9-da mən bu böyük tarixə həsr edilmiş təntənəli tədbirdə onlarla görüşürəm, biz həlak olanların xatirəsini birlikdə yad edir, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Lakin təəssüf ki, müstəqilliyin ilk illərində vəziyyət belə deyildi. Özünü Xalq Cəbhəsi adlandıran bir qrup hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etdilər, müharibə veteranları təqiblərə, mənəvi terrora məruz qalırdılar, bəzi ölkələrdə indi də baş verən hadisələr o vaxt praktiki olaraq bizdə baş verirdi. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra tarixi ədalət bərpa olundu, veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, mayın 9-u ümummilli bayram elan edildi və biz o vaxtdan - 1994-cü ildən bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür.

***- Nasist canilərinin, o cümlədən postsovet məkanında qəhrəmanlaşdırılmasına qarşı mübarizə hazırda həmişəkindən daha aktualdır.***

- Bu gün tarixi yenidən yazmaq, faşistləri qəhrəmanlaşdırmaq, tarixi həqiqəti təhrif etmək kimi təhlükəli meyillər müşahidə edirik. Biz buna çox ciddi yanaşmalıyıq. İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir.

Qeyd etmək istərdim ki, bu məsələdə həm Rusiyanın, həm də Azərbaycanın mövqeləri tamamilə eynidir. Biz Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Ötən ilin dekabr ayında Sankt-Peterburqda qeyri-formal Sammitdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin İkinci Dünya müharibəsi dövrünə aid bir sıra sənədlər təqdim etdi. Bu sənədlərin çoxu əvvəl məlum deyildi. Hesab edirəm ki, bu faktın böyük əhəmiyyəti olub, çünki müharibənin tarixi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirib. Real faktların məlum olmaması, onları bilməmək çox vaxt tarixi həqiqətin təhrifinə gətirib çıxarır. İkinci Dünya müharibəsinin tarixi məsələsində bu, tarixi yenidən yazmaq və faşizmi qəhrəmanlaşdırmaq kimi təhlükəli meyillərlə bağlıdır. Buna görə belə sənədlərin açılması, əlbəttə ki, tarixi həqiqətə xidmət edir.

Təəssüf ki, MDB məkanında, o cümlədən Ermənistanda da faşizmin qəhrəmanlaşdırılması baş verir. Ermənistanın əvvəlki hakimiyyəti Yerevanın mərkəzində faşist cəllad və satqın, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim edib. Məruzədə deyilir: “Ermənistanın keçmiş hakim Respublika Partiyası üçüncü Reyx ilə əməkdaşlıq etməsi barədə məlumat olan millətçi təmayüllü Qaregin Njde kimi heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”. Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.

**Ardı Səh. 3**

# İlham Əliyev: "9 May - bizim ümumi Böyük Qələbə günümüzdür"

*Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir*

Əvvəli Səh. 2

Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" nəşrinin 6-cı cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyat fəaliyyəti" sərlövhəli məqalədə deyilir: "Dromedar" abverqrup-114 haqqında agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı tapıb və həbs ediblər. O, Böyük Vətən müharibəsi dövründə Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agenti cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə çatdırılmasında iştirak edib. SMERŞ əməkdaşları 17 təxribatçını tutub, qalanlar barəsində axtarış elan ediblər". Njde Avropanın yəhudi əhalisinə qarşı Holokostda da iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya üçün həlak olan Ermənistan üçün həlak olur". Burada necə deyərlər, şərhə ehtiyac yoxdur. Njde həbs edildi və ömrünü Vladimir həbsxanasında başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada az qala 6 metr hündürlüyündə abidə qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yol verilməməlidir.

***- Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yolları və prinsipləri necədir?***

- Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzü ölkəmizin ərazisinin təqribən 20 faizinin işğal edilməsinə gətirib çıxarıb. Nəticədə 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qeyd etməliyəm ki, "Qarabağ" adının özü Azərbaycan sözüdür. Tarixdən məlumdur ki, 1805-ci ildə Qarabağ xanı İbrahim xan tərəfindən Rusiya ordusunun generalı Sisiyanovla imzalanmış sazişə görə Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçib. Kürəkçay sazişi adlanan bu sənədin mətnini internetdə tapmaq olar. Həmin sənəddə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın qalan əraziləri də Rusiya imperiyasının tərkibinə keçib. Həmin dövrdə erməniləri İrandan və Şərqi Anadoludan Azərbaycanın Qarabağ regionuna köçürməyə başlayıblar. Beləliklə, yüz minlərlə erməni köçkün tarixi Azərbaycan torpağına gəlib çıxıb.

Sonradan, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda onun ilk fərmanlarından biri İrəvanın Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verilməsi və Ermənistanın paytaxtı elan edilməsi haqqında fərman olub. Bu da tarixi faktdır. 1921-ci ildə bolşeviklər partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması haqqında qərar qəbul edib. Bəzi erməni tarixçilərinin yazdığı kimi, Azərbaycana verilməsi haqqında yox, məhz saxlanması haqqında. Bu da tarixi faktdır. Daha bir tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında fərman verib.

Azərbaycan BMT-yə daxil olanda da, o, özünün tam ərazi bütövlüyü çərçivəsində daxil olub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, bütün dünya tərəfindən qəbul edilmiş BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı çərçivəsində həll edilməlidir.

Buraya BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qətnamələrini, həmçinin "Dağlıq Qarabağ respublikası" adlandırılan qanunsuz qurumun heç bir ölkə tərəfindən tanınmamasını da əlavə etsək görərik ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində həll edilməlidir. Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, bu torpaqlardan qovulmuş qaçqınlar və məcburi köçkünlər öz tarixi yurdlarına qaytarılmalıdır. İşğal edilən təkcə Dağlıq Qarabağ deyil. Ona bitişik 7 rayon da işğal olunub. Həmin 7 rayonda heç vaxt ermənilər yaşamayıblar.

Münaqişə ilə əlaqədar onu da qeyd etməliyəm ki, bu yaxında erməni təbliğatına və bütövlükdə bu məsələ ilə əlaqədar Ermənistanın mövqeyinə növbəti böyük zərbə vurulub. Əslində, bu zərbəni onlar özləri özlərinə vurublar. Əlbəttə, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla əlaqələrimiz bu zərbəni gücləndirib. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident seçkiləri" haqqındadır. Bu "seçkilər" bir daha göstərdi ki, heç kəs bu qanunsuz hərbi xunta rejimini tanımır. "Seçkilər"dən sonra aparıcı beynəlxalq təşkilatlar onları tanımadı, bu barədə açıq bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ və Fransa bəyanatla çıxış etdilər. ATƏT-in Parlament Assambleyası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Avropa Parlamenti bəyanatlarla çıxış etdilər. Bütün bu təşkilatlar həmin "seçkiləri" tanımadılar və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu, bir daha nümayiş etdirdi, - mən bunu demişəm, bir daha demək istəyirəm, - Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini bu təcavüzkar ölkəyə ciddi təzyiq göstərməyə çağırırıq ki, sülhyaratma prosesi yerində saymasın.

***- Azərbaycan Silahlı Qüvvələrinin müasir vəziyyətini necə qiymətləndirərdiniz?***

- Son illərdə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu gün ölkənin Silahlı Qüvvələrini möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir. Silahlı Qüvvələr ən müasir silahlar və hərbi texnika ilə təchiz edilib. Şübhəsiz, bütün bunlar son illərdə ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə gətirib çıxarıb.

"Global Firepower-2019"un hesabatına görə, Azərbaycan dünyanın ən güclü ordularının reytinqində 52-ci yerdədir. Xüsusi qeyd etmək istəyirəm ki, 2006-cı ildə bizdə Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Son illərdə 20-dən çox hərbi zavod fəaliyyətə başlayıb.

Ardı Səh. 4



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2016-cı ildə erməni işğalından azad edilmiş ərazilərdə komanda məntəqəsinə baş çəkərkən operativ şəraitlə tanış olarkən.**



**Prezident İlham Əliyev Azərbaycan Ordusunun silahlarının müasir nümunələri və hərbi qulluqçuların perspektivli təchizatı ilə tanış olur.**



**Rusiyadan Azərbaycana silah təchizatının həcmi 5 milyard dollar təşkil edir.**

# İlham Əliyev: "9 May - bizim ümumi Böyük Qələbə günümüzdür"

*Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir*

Əvvəli Səh. 3

Bu zavodlarda 2000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal edilir, ordumuz həmin məhsullarla təchiz olunur. Eyni zamanda, biz hərbi məhsulları ixrac edirik.

Son illərdə ən müasir texnika və silahlar alınıb. Onların arasında yüzlərlə zirehli texnika, çoxsaylı keşikçi gəmiləri və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi-nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir pilotsuz kəşfiyyat və döyüş uçuş aparatları, hava hücumundan, raketdən müdafiə vasitələri, ən müasir rabitə vasitələri, reaktiv yaylım atəşi sistemləri, operativ-taktiki raket kompleksləri var.



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Beyləqan rayonundakı hərbi hissədə xidmət və məişət şəraiti ilə tanış olur.

Biz hərbi qulluqçuların sosial həyatına xüsusi əhəmiyyət veririk, hərbçilərin xidmət şəraiti yaxşılaşdırılır. Son illərdə onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Son bir neçə ildə hərbi hissələrin, hərbi şəhərciklərin 80 faizdən çoxu yenidən tikilib və ya əsaslı təmir edilib. Qarşıdakı 2-3 il ərzində bütün hərbi şəhərciklər tamamilə təmir ediləcək. Hərbi qulluqçuların mənzil-məişət məsələləri həll edilir. Qəbul edilmiş qərar əsasında orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət pulsuz mənzillər verir. Bu gün bizim hərbi hissələrdə 20 mindən çox mülki şəxs işləyir. Əvvəllər bu işləri əsgərlər görürdülər. Biz onları məişət işlərindən azad etmişik. Eyni zamanda, mülki şəxslərdən ötrü 20 mindən çox iş yeri açılıb.

Şübhəsiz, yuxarıda göstərilən, son illərdə görülmüş bütün tədbirlər Silahlı Qüvvələrin maddi-texniki bazasının daha da möhkəmlənməsinə, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə səbəb olub və biz bu istiqamətdə atılan addımları davam etdirəcəyik.

***- Rusiya ilə Azərbaycan arasında siyasət, iqtisadiyyat, hərbi-texniki əməkdaşlıq sahələrində və başqa istiqamətlər üzrə münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini Siz necə səciyyələndirərdiniz?***

- Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Prezident Vladimir Vladimiroviç Putin ilə mənim çoxsaylı şəxsi görüşlərim ikitərəfli qarşılıqlı əlaqələrin inkişafına çox ciddi təkan verir, həmçinin bizim regionda vəziyyətə də müsbət təsir göstərir.

Biz fəaliyyətimizin demək olar ki, bütün sahələrini - ticarət, nəqliyyat, energetika, humanitar sahə və turizmi əhatə edən beş yol xəritəsi çərçivəsində proqramı fəal reallaşdırırıq. Ötən ilin sonunda bu yol xəritələrinə daha ikisi - innovasiyalar və gənclər siyasəti üzrə yol xəritələri əlavə edilib.

Keçən il mən Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Diskussiya Klubunun iclasında iştirak etmişəm. Hər il bütün dünyada siyasətçilərin, politoloqların, ekspertlərin və analitiklərin diqqətini cəlb edən bu tədbirə dəvət almış dörd dövlət başçısından biri mən idim. "Valday" Klubu dünya gündəliyindəki mühüm problemlərin müzakirəsi üçün ən vacib diskussiya platformalarından biri kimi özünü göstərib.



Rusiya ilə Azərbaycan arasında dinamik inkişaf edən əlaqələr çox cəhətdən prezidentlər Vladimir Putinin və İlham Əliyevin qarşılıqlı münasibətlərinin dostluq və etimad xarakteri ilə müəyyən edilir.

Rusiya ilə bizim münasibətlərimiz zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən belədir. Biz həm qonşuyuq, həm də mehriban dostlar. Son dövrdə bizim münasibətlərimiz daha səmərəli və keyfiyyətli olub.

Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır, ən mühüm və ümdə məsələlərdə ənənəvi olaraq bir-birimizi dəstəkləyirik. Biz BMT, ATƏT və əlbəttə MDB məkanında sıx qarşılıqlı fəaliyyətdəyik.

Bizim çox sıx iqtisadi, ticari münasibətlərimiz var. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Həcmi milyard dollarlarla ölçülən qarşılıqlı investisiyalar həyata keçirilir.

Ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi təqribən 20 faiz artıb və 3 milyard dollardan çox olub.

Burada bir məqamı qeyd etmək çox vacibdir ki, koronavirus pandemiyası ilə əlaqədar vəziyyətə baxmayaraq, cari ilin birinci rübündə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 faiz artıb, ixrac-idxal əməliyyatlarının həcmi də artıb. Bu da çox vacibdir ki, Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyətini davam etdirir, o cümlədən bu dəhliz çərçivəsində yükdaşımalar və tranzit daşımaları həyata keçirilir. Azərbaycan ərazisindən keçməklə Rusiyadan Avropa istiqamətində Şimal-Qərb dəhlizi də işə salınıb. Ötən ilin sonunda Azərbaycanla Rusiyanın sərhədində Samur çayı üzərindən körpünün açılışı təkcə bu iki ölkə üçün deyil, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edən hadisə olub. Ona görə ki, bu körpü beynəlxalq yükdaşımaların intensivləşdirilməsi, biznes əlaqələrinin genişlənməsi, habelə Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizlərinin inkişafı üçün yeni imkanlar yaradır. Keçən il Şimal-Cənub dəhlizi ilə yükdaşımaların həcmi 60 faiz artıb. Azərbaycan regionda əməkdaşlıq üçün yaxşı perspektivlər açan, Asiyadan Avropaya və əks istiqamətdə yüklərin daşınması məsafəsini və çatdırılması müddətlərini xeyli azaldacaq bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işi başa çatdırıb. Hesab edirəm ki, regionda mühüm nəqliyyat arteriyası kimi Şimal-Cənub dəhlizinə ehtiyac daha da artacaq .

Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Rusiya və Azərbaycan prezidentlərinin birgə mətbuat konfranslarının birində deyildiyi kimi, Azərbaycanın Rusiyadan aldığı hərbi təyinatlı məhsulların həcmi 5 milyard dollara bərabərdir.

Humanitar sahədə əlaqələrimiz də uğurla inkişaf edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin filialı, həmçinin Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində bölmələr mövcuddur. Ölkəmizdə 25 min tələbə rus dilində oxuyur. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində təhsil alır.

Bizim münasibətlərimizin bir göstəricisi həm ölkələr, həm də xalqlar arasında münasibətlərin ruhuna və xarakterinə ən parlaq sübutdur. 2019-cu ildə Azərbaycana Rusiyadan rekord sayda - bir milyona yaxın turist səfər edib. Bu ilin əvvəlində də yaxşı dinamika müşahidə olunurdu, lakin koronavirus pandemiyası turist axınını dayandırdı. Ümidvarıq ki, pandemiya başa çatandan və sərhədlər açılandan sonra rusiyalı turistlərin ölkəmizə səfərləri bərpa olunacaq. Ona görə ki, rusiyalılar burada özlərini rahat, adi şəraitdə olduğu kimi hiss edir, dil baryeri ilə bağlı çətinliklərlə üzləşmirlər.Bu da sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx nümunələrini dadmaq üçün getmirlər, onlar elə yerlərə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss etsinlər.

Keçən il noyabrın 23-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində əsaslı bərpa işlərindən sonra "Azərbaycan" pavilyonunun açılışı oldu. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun bərpadan sonra açılışı ölkələrimiz arasında münasibətlərin dostluq xarakterinin daha bir təzahürü oldu.

***- Dünyada strateji və enerji sabitliyinin dəstəklənməsinə Azərbaycanın töhfəsi nədən ibarətdir?***

- Mən dəfələrlə demişəm ki, hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Buna görə də əsas məsələ enerji müstəqilliyinin təmin edilməsi idi və biz buna nail olduq.

Son illərdə Azərbaycan elektrik enerjisinin və təbii qazın idxalçısından onların ixracatçısına çevrilib. 2003-cü ildən bəri Azərbaycanda 30-dan çox elektrik stansiyası tikilib. Bir neçə ildir ki, biz istehsal edilən elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Yeri gəlmişkən, biz ölkənin ekoloji vəziyyətinə böyük diqqət yetiririk, buna görə də son illərdə Azərbaycanda inşa edilən elektrik stansiyaları bütün ekoloji tələblərə cavab verir və respublikanın təbii qaz və su ehtiyatları əsasında işləyir.

Biz Azərbaycanda bərpaolunan enerjinin inkişafına da böyük diqqət yetiririk. Bu ilin yanvar ayında ilkin razılıq əldə edildi və bərpaolunan enerji sahəsində böyük təcrübəyə malik olan iki iri xarici şirkət Azərbaycanla ilkin sazişlər imzaladı. Həmin sazişlərə əsasən ölkəmizdə yalnız əcnəbi investorların hesabına ümumi gücü 440 meqavat olan iki elektrik stansiyası tikiləcək - biri külək enerjisindən, digəri günəş enerjisindən elektrik enerjisi istehsal edəcək.

Bizdə elektrotexnika sahəsinin infrastrukturu tamamilə modernləşdirilib. Davos Dünya İqtisadi Forumunun reytinqinə əsasən elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yeri tutur.

İri transmilli neft-qaz layihələrinin həyata keçirilməsi məsələsinə gəldikdə bizim enerji resurslarını bir neçə istiqamətdə ixrac edən 7 neft və qaz kəməri inşa olunub.

Ardı Səh. 5

# İlham Əliyev: “9 May - bizim ümumi Böyük Qələbə günümüzdür”

*Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir*



*Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışında.*

Əvvəli Səh. 4

Cənub Qaz Dəhlizinin tikintisi uğurla başa çatmaq üzrədir. Bu dəhliz dörd layihədən ibarətdir:

X Ehtiyatlarının həcmi 1 trilyon kubmetrdən çox olan “Şahdəniz-2” qaz-kondensat yatağı;

X Cənubi Qafqaz qaz kəməri;

X TransAnadolu qaz kəməri (TANAP).

Yuxarıda göstərilən 3 layihənin reallaşması artıq başa çatdırılıb.

X TransAdriatik qaz kəmərinin (TAP) tikintisi üzrə işlərin 94 faizdən çoxu yerinə yetirilib.

Nisbətən yaxın vaxtlarda ehtiyatlarının həcmi minimum 300 milyard kubmetr qaza bərabər olan yeni “Abşeron” qaz-kondensat yatağı açılıb. Bu yataqda hasilatın gələn il başlanması gözlənilir. Bu ilin mart ayında “Qarabağ” iri neft yatağı kəşf edilib. Daha bir neçə perspektivli neft-qaz strukturu kəşfiyyat və işlənilmə mərhələsindədir. Beləliklə, bütün bunlar neft hasilatının sabit profilini və təbii qaz hasilatının artan həcmini təmin edəcək.

Biz lap əvvəldən OPEC+ formatında fəal iştirak etmişik. Qeyd etmək istəyirəm ki, OPEC+ formatı ideyasını ilk dəfə mən bir neçə il bundan əvvəl Davos Dünya İqtisadi Forumunun panel müzakirələrində irəli sürmüşəm. Azərbaycan bu yaxınlarda da 9-cu və 10-cu OPEC+ görüşlərində fəal iştirak edib. Bu görüşlərin digər iştirakçıları kimi, Azərbaycan da neft hasilatının azaldılması üzrə öhdəlik götürüb, özünü etibarlı və sabit tərəfdaş kimi göstərib.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərimizin bütün başqa sahələrində olduğu kimi, enerji sahəsində də çoxillik uğurlu



**Azərbaycan Prezidenti İlham Əliyev Xəzər qazını Avropaya çatdırmağa imkan verən yeni qaz kəmərləri şəbəkəsinin bir hissəsi olan Cənub Qaz Dəhlizinin tikintisinin başlanılması mərasimində.**

əməkdaşlıq təcrübəsinə malikdir və mən əminəm ki, bu əlaqələr gələcəkdə də fəal inkişaf edəcək.

Sonda dost Rusiya xalqını Böyük Vətən müharibəsində Qələbənin yaxınlaşmaqda olan 75 illiyi bayramı münasibətilə təbrik etmək istərdim. Mən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin tərəfindən mayın 9-da Qələbə Gününün bayram edilməsi üçün Moskvaya dəvət olunmuşam və bu bayram tədbirində iştirak etmək niyyətində idim. Lakin təəssüf ki, koronavirus pandemiyası ilə əlaqədar bu tədbir başqa vaxta keçirilib. 9 May bizim ümumi bayramımızdır. Bizim ümumi Böyük Qələbəmiz günüdür. Azərbaycanın və Rusiyanın bu bayrama münasibəti ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır.

# Böyük Vətən müharibəsində həlak olan Azərbaycan övladlarının xatirəsi ehtiramla anılıb

***Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 75 il keçir. AZƏRTAC xəbər verir ki, bu münasibətlə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.***

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici əhəmiyyət kəsb edib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Amma 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramını ləğv etmişdi və veteranlar mənəvi terrora məruz qalmışdılar. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları “xalqımızın qızıl fondu” adlandırdı. Prezi-





dent İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Böyük Vətən müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərən qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır və 75 il keçsə də onların qazandığı tarixi Qələbə öz əhəmiyyətini itirmir.



# Sumqayıtda “Gilan Tekstil Park” MMC-nin tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışı olub

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda “Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, “Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Mehriban Axundova dövlətimizin başçısına və birinci xanıma müəssisələrin fəaliyyəti barədə məlumat verdi.***











Bildirildi ki, tibbi maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. Maskalar üçqatdır və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıq quraşdırılacaq. Bu isə öz növbəsində istehsal gücünü artırmağa imkan verəcək. Beləliklə, fabrikdə mərhələli şəkildə bu göstərici 300 min ədədədək artırılacaq. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıq quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaq.





“Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətində birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb. Məhsullar polietilen qoruyucu membranla örtülüb, yüksək sıxlıqlı polipropilendən olan toxunmamış parçadan tikilir. Bu isə öz növbəsində məhsulun keyfiyyətini artırır. Belə ki, bu parça möhkəmliyi, sukeçirməzliyi, kimyəvi maddələrə davamlılığı, yüngüllüyü ilə fərqlənir. İstehsal olunan qoruyucu kombinezonlar istifadəçiləri virus, infeksiya, zərərli kimyəvi maddələrdən və ya həssaslıq yarada bilən məhsul və proseslərdən qoruyur. Məhsulun uyğunluğu müvafiq standartlar üzrə sertifikatlaşdırılıb. Burada gün ərzində 6 min ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur. Müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Belə ki, buradakı istehsalat prosesinə 210 işçi cəlb olunub. Yerli tələbat ödənildikdən sonra həm tibbi maskaların, həm də qoruyucu kombinezonların ixracı da nəzərdə tutulur. Beləliklə, bu cür müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın ixrac potensialının artırılmasına xidmət etməklə bərabər, qeyri-neft sektorunun inkişafı baxımından da böyük rol oynayır. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşüblər.



Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar tibbi maska, qoruyucu geyimlərə son dövrlərdə dünyada tələbat kəskin artıb. Bu səbəbdən də həmin məhsulların dünyanın bir çox ölkələrində böyük qıtlığı yaşanır. Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda ilk günlərdən həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, insanların sağlamlığı, virusun yayılmasının qarşısının alınması baxımından mühüm rol oynayan bu məhsullar ölkəmizdə istehsal olunmağa başlayıb. Bu müəssisələrin fəaliyyətə başlaması, ilk növbədə, Azərbaycanda dövlət səviyyəsində əhalinin sağlamlığının qorunması məsələsinə yüksək dərəcədə həssaslıqla yanaşıldığını göstərir.

# Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Prezident İlham Əliyev Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Rusiya Prezidentini və dost Rusiya xalqını təbrik edib. Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib, öz növbəsində, bayram münasibətilə Azərbaycan Prezidentinə və dost Azərbaycan xalqına təbriklərini çatdırıb. Dövlət başçıları koronavirusla mübarizə istiqamətində görülən işlər və ölkələrimizin bu sahədə əməkdaşlığı barədə fikir mübadiləsi aparıblar.

Telefon söhbəti zamanı Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib.



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər*



***Mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarı önünə gül qoydular, Ulu Öndərin xatirəsini ehtiramla andılar.***

Sonra dövlətimizin başçısı və xanımı Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Prezident və birinci xanım görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzdülər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu böyük insan öz əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşib.



Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", - deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz əməllərində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas məzmunu isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə ağac əkiblər

***Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.***

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir. Ölkəmizdə bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.













Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıb. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülən işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıb.

Burada icra olunan layihənin birinci mərhələsində - 2018-2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilməklə geniş meşə-park salınıb. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, Həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac kol növlərinə aid, ümumilikdə, 82 min tingin əkilməsi planlaşdırılır. Layihənin icrası Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şosesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaq.

# Ombudsman: "Ermənistanın insan azadlıqlarından danışması gülüncdür"



***"Bəşəriyyətin mütərəqqi dəyərlərini mənimsəmək iqtidarında olmayan, adı işğalçı siyasət və dövlət terrorizmi anlayışları ilə assosiasiya olunan Ermənistanın insan hüquq və azadlıqlarının qorunmasından danışması gülünc, absurd və paradoksaldır". SİA xəbər verir ki, bunu Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib. Ermənistanın Ombudsmanının azərbaycanlı həmkarı ilə görüşməyə hazır olması və Dağlıq Qarabağla bağlı hər hansı məsələnin müzakirəsində separatçı rejimin "ombudsman"ının da iştirak etməli olduğu barədə fikrinə toxunan Səbinə Əliyeva bildirib ki, bu açıqlama faktiki olaraq beynəlxalq hüquq normalarına böyük sayğısızlıq, ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin heçə sayılması və separatizmin dəstəklənməsidir:***

"Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib, etnik təmizləmə siyasəti həyata keçirib, bunun nəticəsində 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, humanitar fəlakətlə üzləşib. Bununla yanaşı, işğalçı ölkə tərəfindən XX əsrin ən dəhşətli faciələrindən biri və bəşəriyyətə qarşı cinayət olan Xocalı soyqırımı törədilib ki, bu da erməni millətçilərinin xalqımıza qarşı təcavüzkarlıq və soyqırımı siyasətinin ən qanlı səhifələrindəndir. Əgər Ermənistanın ombudsmanını insan hüquqlarının müdafiəsi məsələsi maraqlandırırsa, bu faktları xatırlasın, bəhs olunan reallıqlara bir daha nəzər salsın. Bütün dünyaya məlumdur ki, işğal nəticəsində əzəli yurdundan didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş soydaşlarımızın bütün fundamental hüquqları - yaşamaq, mülkiyyət, təhsil, seçki (bələdiyyə) və s. kobud surətdə pozulub. Ümumiyyətlə, Ermənistan tərəfindən Azərbaycana qarşı davam edən hərbi təcavüz fonunda törədilmiş insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının kobud şəkildə pozulmasıdır. Bütün bunlara görə Azərbaycanın torpaqlarını işğal altında saxlayan, azərbaycanlılara qarşı təcavüzkar siyasət yeridərək çoxsaylı soyqırım aktları törətmiş Ermənistana qarşı sanksiyalar tətbiq olunmalı, Azərbaycanın ərazi bütövlüyü, qaçqın və məcburi köçkün soydaşlarımızın pozulmuş fundamental hüquqları bərpa edilməli, dinc insanları qətlə yetirən cinayətkarlar tezliklə ədalət mühakiməsinə cəlb olunmalı və cəzalandırılmalıdırlar".

Müvəkkil Səbinə Əliyeva əlavə edib ki, Ermənistanın müvəkkili insan hüquqlarının müdafiəsi məsələsini müzakirəyə çıxarmaq istəyirsə, əvvəlcə BMT-nin 822, 853, 874 və 884 saylı dörd qətnaməsi dərhal və qeyd-şərtsiz yerinə yetirilməli, təcavüzkar ölkənin silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş azərbaycanlılar tarixi yurdlarına qayıtmalıdırlar: "Hər gün bu işğal nəticəsində bütün fundamental hüquqları pozulmuş soydaşlarımız tərəfindən mənə çoxsaylı müraciətlər edilir. Onlar, eyni zamanda, məsələ ilə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinə üz tutublar. Belə olan halda, Ermənistanın ombudsmanının Azərbaycanın tarixi torpaqlarında insan hüquqlarının qorunması məsələsi ilə bağlı müzakirələrdən danışması cəfəngiyyat olmaqla yanaşı, bəşəriyyətə qarşı təhqir, beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmiş növbəti bir cəhddir".

Ermənistan Ombudsmanının Dağlıq Qarabağla bağlı hər hansı məsələnin müzakirəsində separatçı rejimin "ombudsman"ının da iştirak etməli olduğu haqda fikrə münasibət bildirən müvəkkil vurğulayıb ki, qondarma "Dağlıq Qarabağ respublikası" işğal və terror məhsulu olan separatçı qurumdur: "Onun hüquqi statusu yoxdur, beynəlxalq səviyyədə tanınmır. Ona görə də nə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesində, nə də hər hansı bir müzakirədə iştirak etmək hüququna malikdir. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda bu yaxınlarda təşkil edilmiş "seçki" şousunun iflasa uğraması, Ermənistanın qondarma və separatçı qurumu legitimləşdirmək cəhdlərinin beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməsi işğalçılara, o cümlədən hüquqi məsələləri siyasi manipulyasiya predmetinə çevirərək primitiv metodlarla ucuz şou təşkil edən erməni müvəkkilə dərs olmalıdır".

Müvəkkil nəzərə çatdırıb ki, işğal faktı aradan qaldırıldıqdan və soydaşlarımızın bütün fundamental hüquqları bərpa edildikdən sonra Ermənistan Ombudsmanı ilə insan hüquqları ilə əlaqədar müzakirələr apara bilər.

***Nigar Məmmədova***

# "Paşinyan əsl faşizm nümunəsi göstərir"



"Ermənilər Azərbaycan torpaqlarına köçürüləndən bəri faşizm ideologiyası daima onların silahı olub. O zamanlar sadəcə faşizm termini yox idi. Ancaq ermənilərin xalqımıza qarşı törətdikləri cinayətlər ən qatı faşistlərin belə cinayət əməllərindən daha qəddar olub". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu deyib. Deputatın sözlərinə görə, Nikol Paşinyanın babasının faşizmə xidmət etməsi o qədər də təccüblü deyil: "Elə bu gün Ermənistanın baş naziri statusunda olan Nikol Paşinyan hələ də Azərbaycan torpaqlarını işğal altında saxlamaqla əsl faşizm nümunəsi göstərir. İşğalçı Ermənistanın siyasi rəhbərliyi Qaragin Nijde kimi faşistə heykəl qoymaqla bu gün də öz faşist xilqətlərinə sadiq qaldıqlarını nümayiş etdirir. Bunu bütün dünya ictimaiyyəti görür ancaq təəssüf ki, münasibət hələ də adekvat deyil".

H.Babaoğlu vurğulayıb ki, Paşinyan bir tərəfdən özünü demokrat kimi təqdim etməyə çalışır digər tərəfdən işğalçılıq siyasətini davam etdirir və danışıqlar prosesinə süni manelər yaratmağa çalışır: "Bəzi ekspertlər Paşinyanın faşizmə xidmət edən babası haqqında informasiyanın Ermənistan media məkanında informasiya dövriyyəsinə gətirilməsini də təsadüfi hesab etmirlər. Nikol Paşinyan bunu qəsdən etməklə əslində erməni cəmiyyətində çoxluq təşkil edən faşizm pərəstişkarlarına gizli mesaj verərək onlarla birlikdə olduğunu örtülü şəkildə ifadə edir. Ancaq necə olursa olsun sonunda bu cılız küçə demokratı ifşa olunacaq. Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək".

# ÜST Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirib



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. SİA-nın məlumatına görə, məktubda Baş direktor COVID-19-a qarşı mübarizədə qabaqlayıcı tədbirlər həyata keçirdiyi üçün Azərbaycan Hökumətinin gördüyü işləri yüksək qiymətləndirib. Eyni zamanda, o, Azərbaycan Respublikası Prezidentinin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyini nümunəvi adlandırıb və bunun Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş ardıcıl tədbirlər zamanı aydın şəkildə özünü büruzə verdiyini xüsusilə qeyd edib.

ÜST-nin Baş direktoru 2020-ci il aprelin 10-da Prezident İlham Əliyevin sədrliyi ilə COVID-19-la bağlı Türk Şurasının videokonfrans formatında keçirilmiş fövqəladə Zirvə görüşünün əməkdaşlığı daha da gücləndirdiyini və hər iki təşkilat arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini bildirib.

Qoşulmama Hərəkatının videokonfrans formatında təşkil olunan Zirvə görüşünə toxunan T.Qebreyesus tədbirin çox uğurla keçirilməsinə görə Azərbaycan Respublikasının Prezidentini təbrik edib və bunu mükəmməl bir təşəbbüs adlandırıb. O, Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilmiş tədbirdə qəbul edilmiş yekun bəyannaməyə uyğun olaraq Hərəkata üzv dövlətlərin əsas ehtiyaclarını özündə ehtiva edən məlumat bazasının işlənib hazırlanması istiqamətində İşçi Qrupun yaradılmasının nəzərdə tutulduğunu bildirib və ÜST-nin İşçi Qrupun səylərini dəstəkləməyə hazır olduğunu qeyd edib.

Eyni zamanda, T.Qebreyesus COVID-19-un səbəb olduğu təhdidlərlə mübarizədə qlobal, regional və ölkə səviyyəsində ÜST-nin Azərbaycanla əməkdaşlığa hazır olduğunu bildirib. Yekunda ÜST-nin Baş direktoru Azərbaycan Respublikasının Prezidentinə dərin hörmətini və ehtiramını çatdırıb.

# Avstraliya Xarici İşlər Nazirliyi Dağlıq Qarabağda keçirilmiş saxta seçkilərə münasibətini bir daha açıqlayıb

Avstraliya Xarici İşlər Nazirliyi bu yaxınlarda separatçı rejim tərəfindən Dağlıq Qarabağda keçirilmiş saxta seçkilərə münasibətini bir daha açıqlayıb.

Bu barədə AZƏRTAC-ın Avstraliya üzrə xüsusi müxbirinə Avstraliya Azərbaycanlıları Assosiasiyasının sədri Mikayıl Oyta məlumat verib. Assosiasiyanın sədri bildirib ki, Xarici İşlər Nazirliyinin diaspor təşkilatının mövzuya dair məktubuna göndərdiyi cavabda Avstraliya hökumətinin Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ ərazisi ilə bağlı ümumi mövqeyi öz əksini tapıb. Belə ki, məktubda Avstraliya hökumətinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi və Dağlıq Qarabağı müstəqil qurum kimi tanımadığı vurğulanıb. Məktubda deyilir: "Biz 2020-ci il martın 31-də keçirilən saxta seçkiləri, həmçinin onun təşkili ilə bağlı konstitusiya və hüquqi çərçivəni tanımırıq. Bir az da irəli gedərək bildirmək istəyirik ki, Avstraliya ATƏT-in Minsk qrupu çərçivəsində sülh prosesinə göstərilən cəhdləri dəstəkləyir. Prosesə əlaqədar icmalar və hökumətlər arasında keçirilən dialoqu məsələnin sülh yolu ilə həlli üçün ən düzgün yol hesab edir".

# Azərbaycanda daha 104 nəfər koronavirusa yoluxdu

Azərbaycan Respublikasında 104 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertoniya və şəkərli diabet xəstəliyi olan 1943-cü il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 2693 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1735 nəfər müalicə olunaraq sağalıb, 33 nəfər vəfat edib, 925 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 42 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 202.282 test aparılıb.



# İsa Həbibbəyli: “Təmas Qrupu formatındakı Zirvə görüşü dünya üçün çox əhəmiyyətlidir”



***“Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşünün keçirilməsi qlobal pandemiyaya qarşı mübarizədə beynəlxalq həmrəylik baxımından kifayət qədər əhəmiyyətli və önəmlidir”. Bu fikirləri SİA-ya AMEA-nın vitse-prezidenti, millət vəkili İsa Həbibbəyli sözügedən mövzu ilə bağlı fikirlərini açıqlayarkən deyib.***

Onun sözlərinə görə, bəşəriyyət yalnız bir olaraq, həmrəy şəkildə pandemiyaya qarşı qalib gələ bilər və Azərbaycanda aparılan işlər də buna bir nümunədir: “Məhz bu baxımdan, qırxdan çox üzv ölkənin dövlət və hökumət başçılarının, həmçinin aparıcı beynəlxalq təşkilatların rəhbərlərinin Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsünə dəstək verməsi və onların Zirvə görüşündə iştirakları eyni zamanda ölkəmizin və onun liderinin nüfuzunun nə qədər yüksək olduğunu bur daha göstərdi. SİTAT: “Artıq bütün dünya görür və etiraf edir ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə fəal rol oynayır. Ölkəmizdə aparılan işlərin hər birinə bilavasitə Prezident İlham Əliyev cənabları şəxsən nəzarət edir. O cümlədən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın bu işlərdə göstərdiyi nəhəng dəstəyi də belə deməyə əsas verir ki, insanların sosial təminatlarından tutmuş bütün detallara qədər diqqət göstərilir. Bu baxımdan, Azərbaycanda aparılan işlər digər ölkələrə nümunə olaraq göstərilməkdədir. Qoşulmama Hərəkatının Zirvə toplantısı da bunu ehtiva etməkdədir.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı bildirdi ki, koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir. Görüşündə Prezident İlham Əliyev əhatəli çıxış etdi və ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan tədbirlər haqqında ətraflı məlumat verdi. Cənab Prezidentin qeyd etdiyi kimi, pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın əməkdaşlığa böyük ehtiyac var. O, vurğuladı ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

O cümlədən, Türk Şurasının da Prezident İlham Əliyevin təşəbbüsü ilə Zirvə görüşünün keçirilməsi, qlobal pandemiyaya qarşı birgə mübarizə reallığı qeyd edilən fikirləri sübut etməkdədir. Ona görə də, hesab edirəm ki, qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır və bu önəmi təbliğ edən, diqqətə çatdırAn bilavasitə Azərbaycan dövləti və Prezidentidir”.

“Qlobal bəlanın yayılmasının qarşısının alınması istiqamətində və onun fəsadlarının aradan qaldırılması üçün Qoşulmama Hərəkatına üzv olan dövlətlərin də qarşısında duran ən mühüm vəzifələrdən biri və birincisi edilən çağırışlara səs vermələri, dəstək göstərmələridir və biz bunun şahidi olduq”, deyən AMEA-nın vitse-prezidenti əlavə edib ki, Prezident İlham Əliyev cənablarının təşəbbüsü ilə belə bir Zirvə görüşünün keçirilməsi və görüşün sonunda Bəyannamənin qəbul olunması bütün dövlətlərin səylərinin birləşdirilməsi çağırışının məntiqi sübutudur: “Belə ki, Azərbaycan öz təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradıb, bu körpünün möhkəm dayaqlara söykənməsi də əlbəttə ki, şübhəsizdir. Eyni zamanda, Azərbaycan Prezidentinin Sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzunun, beynəlxalq aləmdə oynadığı rolun artırılması istiqamətində çox mühüm təşəbbüslər irəli sürür. Ona görə də, hesab edirəm ki, Təmas Qrupu formatında Zirvə görüşü də bu mənada çox əhəmiyyətli və vacib reallıqdır”.

Millət vəkili daha bir vacib məqama da toxunaraq bildirdi ki, Qoşulmama Hərəkatı Azərbaycan üçün həm də siyasi baxımdan önəm kəsb edən reallıqdır. İsa Həbibbəyliyə görə, bura ilk növbədə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin reallıqlarının dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm siyasi mərkəzdir. SİTAT: “Qoşulmama Hərəkatının əsaslandığı, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörməti, bir-birinin daxili işlərinə qarışmamağı ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasət prinsipləri ilə üst-üstə düşür. Bakıda keçirilən Zirvə görüşünün Yekun Sənədinə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Məlumdur ki, bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Yəni bu reallıq təcavüzkar Ermənistanın 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması anlamını daşıyır”.

“Beləliklə, BMT-dən sonra ikinci böyük təşkilat hesab edilən Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycan fəal siyasət həyata keçirməkdədir və bu, həm dövlət maraqlarımızın qorunması, həm də Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun daha da güclənməsi baxımından əhəmiyyətlidir. Biz, bu əhəmiyyətin nə qədər mühüm səmərə verməsini də görməkdəyik”, deyən millət vəkili Azərbaycanın bütün məqamlarda öz gücünü və səriştəsini nümayiş etdirmək qüdrətində olduğunu vurğulayıb.

“Hesab edirəm ki, Azərbaycan hər zaman olduğu kimi bu sınaqdan da qalibiyyətlə, qətiyyətli iradə ilə uğurla çıxacaq. Çünki Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatlar Azərbaycanın postpandemiya dövrünə hazır olduğunu deməyə əsas verməsi ilə yanaşı, həm də Onun uzaqgörən siyasəti nəticəsində qlobal təhlükə xalqımızdan, ölkəmizdən uzaqlaşdırıldı. İnanırıq ki, biz qısa zamanda daha böyük uğurlara imza atmaqla, dünyaya töhfələrimizi verməkdə davam edəcəyik”.

***Rəfiqə HÜSEYNOVA***

# Nikolun faşist şəcərəsi

*Və ya faşist babası olanın faşizm ideologiyasından çıxış etməsindən təəccüblənmək lazım deyil*



***Əslində, faşizm ideologiyası uzun illərdir ki, Ermənistanın dövlət siyasətinin prioritetini təşkil edir. İşğalçı ölkənin, eləcə də, erməni diasporunun maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda çoxsaylı insan tələfatı ilə nəticələnən belə terror aktları baş verib ki, bu da Ermənistanda mövcud olan faşizm ideologiyasının mövcudluğudur. Əbəs deyil ki, Ermənistanın rəhbərləri davamlı olaraq faşizm maraqlarından çıxış edənləri himayə edir. Xüsusilə, bu gün Ermənistanın baş naziri Nikol Paşinyanın babasının alman faşist legionunda SSRİ-yə qarşı döyüşərək ölməsi faktının üzə çıxması bu reallıqların davamı kimi anlaşılar bilər.***

## Ermənistan respublikasının dövlət gerbində də Hitler Almaniyasının rəmzlərinin mövcud olması heç də əbəs deyilmiş



**АРМЕНИЯ**

**Армянские СМИ выяснили, что дед Пашиняна служил в рядах СС во время Великой Отечественной войны.**

Ранее Пашинян опубликовал фотографию деда и сделал запись: *«Никол Пашинян, 1913-1943. Служил в 554-м стрелковом полку 138-й стрелковой дивизии. Вечная слава павшим за Родину».*

На сайте *https://obd-memorial.ru /*, где указаны данные погибших, пропавших без вести, погибших во время ВОВ, армянские СМИ искали данные опубликованного Пашиняном человека, и сайт выдал следующее:

День рождения - 23.12.1913.

Место рождения - Армянская ССР, Енокаван.

**Судьба - сотрудничал с врагом, погиб.**

Дата смерти - 29.09.1943.

Сайт также опубликовал документ немецкого учета.

(газета «ИРАВУНК»)

***

O cümlədən, son illərdə Ermənistanın mərkəzində və digər bölgələrində faşist Almaniyasının SS birləşmələrinin generalları - “Njde” ləqəbli Qaregin Ter-Arutyunyan və “Dro” ləqəbli Drasmat Kanayanın heykəllərinin qoyulması da N.Paşinyanın və bütövlükdə Ermənistan dövlətinin faşizmə olan rəğbətin bariz nümunəsidir. Nikol Paşinyanın faşist ideologiyasına hüsn-rəğbətini gizlətməməsi, yaxud faşist babasını sovet döyüşçüsü kimi təqdim etməsi, lakin bu günlərdə onun almanların erməni legionunda xidməti haqqında faktların, sübut və dəlillərin sənəd olaraq ortaya çıxması bu millətin mayasının həqiqətən də qəddarlıqdan yoğrulmasından da xəbər verir. Bu gün Ermənistan respublikasının dövlət gerbində də Hitler Almaniyasının rəmzlərinin mövcud olması heç də əbəs deyilmiş...

O da əbəs deyil ki, 2019-cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev işğalçı Ermənistanın faşist ideologiyasını dövlət siyasətinə çevirdiyini diqqətə çatdıraraq, bir daha dünyaya bəyan etmişdi. SİTAT: “Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın indiki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib”.

Bunu yalnız biz deyil, elə Ermənistanda nəşr edilən “İrvanuk” qəzeti də yazır!

Görünən isə həm də budur ki, N.Paşinyan əvvəlki hakim sistemi hay-küylə devirsə də, onların faşizm ideologiyasını davam etdirir. Bu baxımdan, onun babasının da faşistlərə nökərçilik etməsi faktının dayanmasını göstərmək olar.

Həmçinin, fakt budur ki, N.Paşinyan Ermənistan paytaxtının mərkəzində faşist cəlladı və satqın Qaregin Njdeyə heykəl qoyulması faktını ört-basdır etməklə, faşist babasının da xatirəsini həmin heykəl vasitəsi ilə yad edir.

Ancaq fakt-faktlığında qalmaqdadır və artıq bunu isə yalnız biz biz deyil, elə Ermənistanda nəşr edilən “İrvanuk” qəzeti də yazır. Məhz bu reallıqdan çıxış edərək, növbəti hadisələrin N.Paşinyanın əksinə gedəcəyini düşünmək olar. Faşist babası olanın da faşizm ideologiyasından çıxış etməsindən isə təəccüblənmək lazım deyil. Onsuz da dünya yaxşı bilir və dərk edir ki, kim-kimdir...

***Rövşən NURƏDDİNOĞLU***

# Resurs Analitik İnformasiya Mərkəzinin saytı fəaliyyətə başladı



Resurs Analitik İnformasiya Mərkəzinin fəaliyyəti, aparılan sosioloji və digər tədqiqatlar, eyni zamanda təhlil-proqnoz və şərhlər, analitik məqalələr sizə-xalqımıza və dünyanın hər yerində yaşayan izləyicilərimizə Facebook, İnstagram və Tvitter kimi sosial şəbəkələr vasitəsi ilə çatdırıla bilirdi. Artıq bu gündən Resurs Analitik İnformasiya Mərkəzinin yeni saytı fəaliyyətə başladı. Resurs Analitik İnformasiya Mərkəzinin ofis rəhbəri Rəvan Bağırovun SİA-ya verdiyi məlumata görə, Mərkəzin cari və perspektiv fəaliyyətini, ölkəmizdə, regionda və dünyada baş verən önəmli proseslərin Resurs AİM prizmasından və baxış bucağından www.resursaim.az saytından izləyə bilərsiniz. Ofis rəhbəri bildirib ki, resursaim.az saytı siyasi-iqtisadi, sosial, mənəvi-psixoloji, elmi-publisistik və beynəlxalq münasibətlərin tarixi və bu tarixin müasir münasibətlər sistemində rolu və təsiri, həmçinin beynəlxalq proseslərin təhlili və bu proseslərin regiona və Azərbaycana təsiri, eləcə də dünyada baş verən ən vacib hadisələr haqqında analitika, şərh, təhlil, siyasət, tədbirlər, iqtisadiyyat, mədəniyyət, cəmiyyət, tarixi faktlar, cəmiyyət və aktual problemlər, müsahibələr, sosial tədqiqatlar və araşdırmalar bölmələrində sizə çatdırmağı qarşısına məqsəd qoyub.

“Saytımız ən müasir texniki standart və tələblərə uyğun olaraq hazırlanıb və izləyicilərə beş dildə təqdim olunacaqdır. Resurs Analitik İnformasiya Mərkəzi yeni hazırlanmış resursaim.az saytı vasitəsi ilə vətəndaşlarımıza pulsuz hüquqi yardım almaq şəraiti də yaradıb. Bunun üçün saytımız vasitəsi ilə birbaşa onlayn əlaqə qura bilərsiniz. Vətəndaşlarımızı narahat edən problem və yaxud da müzakirə etmək istədiyiniz suallarınızla müraciət edə bilərsiniz. Eyni zamanda sosial sorğular, ictimai müzakirələr, sosial-ictimai münasibətlərin ifadəsi üçün saytda onlayn ünsiyyət imkanlarından da istifadə olunmasına texniki şərait yaradılmışdır”, deyə Rəvan Bağırov bildirib.

# Müstəqil, qüdrətli, müasir Azərbaycan dövlətinin banisi

*Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb və ən şanlı səhifələri də məhz Onun adı ilə bağlıdır*

***Kimsəyə sirr deyil ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi gerçəkliyə, reallığa çevirib. Bu gün, Ulu Öndər Heydər Əliyev aramızda cismən olmasa da, qəlbimizdə yaşamaqda, yaşadılmaqdadır. Bu baxımdan, Heydər Əliyev Azərbaycan xalqının əbədiyaşar Lideri kimi də tərənnüm olunmaqdadır.***



***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü***

Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Heydər Əliyev bənzərsiz və müqayisəolunmaz şəxsiyyət idi. Ulu Öndər müstəqil dövlətimizin tarixini yaradıb və ən şanlı səhifələri də, məhz Onun adı ilə bağlıdır. Ümummilli Liderimiz demokratiyanın həm ideoloqu, həm təşkilatçısı, həm də icraçısı idi. O, Azərbaycanın nüfuzunu bütün dünyada yetərincə qaldırıb.

Biz bir həqiqəti heç vaxt unutmamalıyıq. Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbərliyə gələndə ölkəmiz geridə qalmış bir respublika idi. Ulu Öndər rayonlara səfər edir, adamlarla görüşür, onların problemlərini öyrənir, bir sözlə, sosial infrastrukturun geridə qalma səbəblərini araşdırırdı. Dahi şəxsiyyət tikinti-quruculuq işlərinə xüsusi əhəmiyyət verirdi. Orta və yaşlı nəslin nümayəndələri yəqin ki, yaxşı xatırlayırlar. O illərdə Azərbaycanın elə bir şəhəri, rayonu, qəsəbəsi, kəndi yox idi ki, orada tikinti-quruculuq işləri aparılmasın. Yollar çəkilir, məktəblər, xəstəxanalar, yaşayış binaları tikilirdi. Heydər Əliyevin xoşbəxtliyi onda idi ki, xalq tərəfindən sevilirdi, fitri istedadı, idarəetmə qabiliyyəti vardı. O, bütün həyatını Azərbaycanın çiçəklənməsinə, qüdrətlənməsinə, insanların firavan yaşamasına həsr etmişdi. Heydər Əliyevi nadir dövlət xadimi kimi uca zirvəyə qaldıran, xalqın ümummilli liderinə çevirən keyfiyyətlərindən birincisi, Onun xalqına qırılmaz tellərlə bağlı olması idi. Ulu Öndər həmişə Azərbaycanlı olması ilə fəxr edirdi. Ölkəmizin bu illər ərzində əldə etdiyi tarixi uğurlar məhz dahi şəxsiyyət, əbədiyaşar Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Müdrikliyin dühası

Azərbaycan 1969-cu ildən 1982-ci ilədək bir dövrdə Heydər Əliyevin qətiyyəti, yorulmaz fəaliyyəti nəticəsində iqtisadi yüksəliş yoluna çıxdı. Respublikamız quruculuq meydanına çevrildi, kəndlər, şəhərlər öz simasını dəyişdi. Ulu Öndər təkcə Azərbaycanın deyil, bütün dünyanın taleyində həlledici təsir göstərən nəhəng siyasətçilər və dövlət xadimləri arasında öz dühası, müdrikliyi ilə xüsusi yer tutmuşdur.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaq, Azərbaycanın indiki və gələcək nəsilləri üçün əbədi örnək olacaqdır. Dahi şəxsiyyət canından çox sevdiyi xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycan bəxş etdi. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Heydər Əliyev dühasının bəhrəsidir. Biz çox xoşbəxtik ki, qismətimizə Onun kimi dahi və nadir şəxsiyyətlə, qüdrətli lider və dövlət rəhbəri ilə eyni dövrdə yaşamaq səadəti düşmüşdür. Bu gün təkcə xalqımız deyil, həm də dünya şöhrətli siyasətçilər, tarixçilər və politoloqlar Ümummilli Liderimiz Heydər Əliyevi müasir müstəqil Azərbaycan dövlətinin həqiqi memarı və yaradıcısı sayır. XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq, müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsidir. Heydər Əliyev şəxsiyyətinin və siyasi fəaliyyətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi, adının bəşər tarixində əbədi iz qoymuş dövlət xadimləri ilə bir sırada çəkilməsi bizim üçün hədsiz qürur və iftixar mənbəyidir. Ulu Öndərimizin xalqımızın və dövlətimizin tarixində, taleyində təkrarolunmaz rolu bizə haqq verir ki, Onu Azərbaycanın bütün dövrlərdə yetişdirdiyi şəxsiyyətlərin ən ucası adlandıraq.

Ulu Öndərimiz Heydər Əliyevin adı bu gün sözün həqiqi mənasında Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Bugünkü güclü, qüdrətli Azərbaycanı O, öz əlləri ilə yaradıb, onun müstəqilliyini yaşadıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb.

Ümummilli Liderimizin bizə ərməğan qoyub getdiyi zəngin irsi bu gün də, sabah da, gələcəkdə də daim öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütun dirəkləridir. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İctimai həyatımızın elə bir sahə və istiqamətini tapmaq mümkün deyil ki, orada Heydər Əliyevin izi, hərarəti duyulmasın. Ulu Öndərimizin 26 il bundan əvvəl uzaqgörənliklə müəyyənləşdirdiyi, konseptual əsaslarını yaratdığı xarici və daxili siyasət kursu, milli neft strategiyası bu gün öz bəhrələrini verir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələri Heydər Əliyevin milli neft strategiyasının təntənəsi, Azərbaycanın xoşbəxt gələcəyinin möhkəm bazası və möcüzəli açarıdır.

Böyük filosof və mütəfəkkir

Ulu Öndər Heydər Əliyev həm də zəmanəmizin böyük filosofu və mütəfəkkiri kimi tanınıb. Onun formalaşdırdığı və həyata keçirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, dünya azərbaycanlılarının bir ideya ətrafında birləşməsinə, həmrəylik nümayiş etdirməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, dünyanın bir çox görkəmli dövlət başçıları və ictimai xadimləri, nüfuzlu politoloqları ümummilli liderimiz barədə yüksək fikirlər söyləmişlər. Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl Ulu Öndərimiz Heydər Əliyevi "Azərbaycan xalqının nicatı üçün bir şans, canını Vətəni və xalqı yolunda sipərə çevirən qeyrətli oğul" - adlandırıb. Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərini çəkmiş görkəmli rəssam Nikos Safronov Heydər Əliyevin 80 illik yubileyi münasibətilə portretini çəkərkən dahi rəhbərimizlə ünsiyyətdə olduqdan sonra bu qənaətə gəlmişdir ki, Heydər Əlirza oğlu Əliyev Tanrının yaratdığı möcüzədir, belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir.

Azərbaycanın bu günkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Azərbaycan-Heydər Əliyev əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə, yaddaşlarda əbədi yaşayacaqdır. O, bizim üçün həmişə əziz olub, əziz olaraq da qalacaqdır. Ulu Öndər müdriklik simvolu idi. Dahi və bənzərsiz şəxsiyyət Heydər Əliyevin ideyaları həyatımızın hər sahəsinə işıq salır, bizə yol göstərir.

Ümummilli Lideri Heydər Əliyev irsinə daim sədaqətliyik, bundan sonra da belə olacağıq

Ümmilli Liderimiz bu gün aramızda olmasa da onun bizlərə qoyduğu ərməğan möhkəm təmələrə əsaslanmışdır. Bizlər həm də ona görə xoşbəxtik ki, məhz Heydər Əliyevin zəngin ideyalarının davamçısı olan layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında gələcəyə addımlayırıq. Çünki, artıq 17 ilə yaxındır ki, Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi Prezident fərmanı ilə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları qəbul olunmuşdur. Prezident İlham Əliyev ölkədə insan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət mərkəzində saxlayır.

"Azərbaycan bu istiqamətdə (koronavirus qarşı mübarizə sahəsində) önləyici tədbirlər görüb"

Bu gün bütün bu uğurlarla yanaşı, Azərbaycan, həmçinin dünya 21-ci əsrin bəlkə də ən böyük problemiylə amansız mübarizədədir. Doğrudur, pandemiyaya çevrilən koronavirus infeksiyasına qarşı dünyanın bütün ölkələri səfərbər olub. Çinin Uhan şəhərində başlayan koronavirus dalğası Şimali Amerikaya qədər gedib çıxıb. Bir sözlə, bu virus heç bir sərhəd tanımır. Məhz bu səbəbdən koronavirusun yayıldığı bütün ölkələr maksimum vətəndaşlarının bu virusa az yoluxmasına çalışır, müxtəlif qabaqlayıcı tədbirlər görürlər. Və Azərbaycan da nəinki bu sahədə geri qalmır, əksinə qabaqlayıcı tədbirlər silsiləsindən əksər ölkələrdən irəlidədir.

Bu günlərdə Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşündə də vurğulandı. Ən mühüm məqam isə, Zirvə görüşündə ölkə başçısı Azərbaycanın koronavirusla mübarizə modelini dünyaya təqdim edərkən faciənin qarşısının alınması üçün dünyaya yol göstərdi. Və bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - Azərbaycan modeli. Bu reallıqdır. Çünki Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir. Çünki Azərbaycanın gördüyü işlər təkcə bu gün yox, gələcəkdə də öyrəniləcək. Çünki istər pandemiya dövründə, ümumiyyətlə insanların sağlamlığının və onların sosial müdafiəsinin təmin edilməsi Azərbaycan dövləti üçün prioritet məsələdir.

Və bir məqamı da təəsüflə vurğulamaq lazımdır ki, sosial şəbəkələrdə şayiə və dezinformasiya, təşviş doğuran xəbərlər yayanlar da var və belələrinə qarşı təhlükəsizlik orqanları tərəfindən ciddi tədbirlər görüləcək, görülməlidir də.

Bir sözlə, bütün bu kimi əhəmiyyətli amillər isə həm də o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Eyni zamanda, bizim hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev irsinə daim sədaqətliyik, bundan sonra da belə olacağıq. Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində əbədiyyən yaşayacaq, yaşadılacaqdır!

## Sənəd qəbulu başladı, proses necə davam edəcək?

"Bu gündən ali təhsil müəssisələrinə başlanan sənəd qəbulu iyun ayının 5-nə qədər davam edəcək. Sənədlər Dövlət İmtahan Mərkəzinin saytı vasitəsilə elektron qaydada qəbul edilir". Bu fikirləri SİA-ya açıqlamasında Dövlət İmtahan Mərkəzinin sektor müdiri Xanlar Xanlarzadə deyib.



O bildirib ki, abituriyentlərə I,II, III və IV ixtisas qruplarından hər hansı birini, eyni zamanda xüsusi qabiliyyət tələb edən V ixtisas qrupu, həmçinin də kolleclərə qəbul olmaq istəyənlər tam orta təhsil bazasında, orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyirəm bəndini seçməlidirlər. Sektor müdiri söyləyib ki, burada abituriyentlər sərbəstdirlər, birini və ya bir neçəsini seçə bilərlər: "Abituriyentlər mütləq müsabiqədə iştirak etmək üçün ərizələrini təsdiq etməlidirlər. DİM-in məlumat bazalarında abituriyent haqqında məlumatlara əsasən, ərizələrin təsdiqi iki formada həyata keçirilir. Əksər abituriyentlər özləri ərizələrini təsdiq edə bilirlər. Lakin digərləri sənəd qəbulu komissiyalarına yaxınlaşmaqla bunu edə bilərlər. Bunun üçün də mayın 18-dən etibarən DİM-in saytında "online" növbə sistemi aktiv ediləcək və beləliklə ora daxil olmaqla saat neçədə və hansı tarixdə sənəd qəbulu komissiyalarına yaxınlaşacağınız barədə məlumat əldə edəcəksiniz". X. Xanlarzadə qeyd edib ki, sənəd qəbulu komissiyaları DİM-in 3 inzibati binasında o cümlədən, Mərkəzin regionlarda yerləşən bölmələrində fəaliyyət göstərəcək: "Kimə hansı bölgə yaxındıprsa, həmin şəxslər həmin bölmələrində ərizələrini təsdiq edə biləcəklər".

***Nailə Məhərrəmova***

# Prezident İlham Əliyevin nüfuzu və güclü Azərbaycan reallığı!

*Ölkəmiz bir daha bütün dünyaya sübut edir ki, onun həmrəy xalqı, qətiyyətli dövlət başçısı və sarsılmaz xalq-iqtidar birliyi var!*

***Azərbaycanda reallaşdırılan islahatlar və həyata keçirilən çoxşaxəli işlərin hər biri bilavasitə xalqımızın rifah halının daha da yaxşılaşdırılmasına, ölkəmizin dünya birliyindəki yerinin möhkəmləndirilməsinə xidmət edir. Prezident İlham Əliyev cənablarının istər regional, istərsə də dünya əhəmiyyətli təşəbbüskarlığı və fəaliyyəti isə bir daha sübut edir ki, Azərbaycan dövləti həm də söz sahibi olaraq çıxış edir. Biz bunu ötən müddət ərzində video-konfrans şəklində keçirilmiş Türk Şurasının Zirvə toplantısında və Qoşulmama Hərəkatının Təmas Qrupunun toplantısında gördük.***

### Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyanın iki mühüm təşkilatlarının sədri olaraq bu məsələdə növbəti təşəbbüsünü önə sürdü, beynəlxalq həmrəylik çağırışını etdi



*Almas OSMANOVA,*
*YAP Zəngilan rayon təşkilatının Qadınlar Şurasının sədri*

Belə ki, bu gün dünyada qlobal COVİD-19 pandemiyası tüğyan edir və hətta ən aparıcı dünya dövlətləri belə, bu virusla mübarizədə çətinlik çəkirlər. Əlbəttə, ölkələr bir-birlərinə yardımlar edir, pandemiyanın aradan qaldırılması istiqamətində humanitar dəstəklər göstərirlər. Ancaq bu da yetərli deyil. Ona görə də, Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyanın iki mühüm təşkilatlarının sədri olaraq bu məsələdə növbəti təşəbbüsünü önə sürdü, beynəlxalq həmrəylik çağırışını etdi. Çünki Azərbaycanda pandemiyaya qarşı mübarizədə əldə edilən uğurlar dünya üçün bir nümunə, örnək etalonuna çevrilib. Vətəndaşların sağlamlıqlarının mühafizəsi, hətta belə bir çətin vəziyyətdə insanların sosial-rifah hallarının yaxşılaşdırılması, humanizm prinsiplərinin ən yüksək səviyyədə həyata keçirilməsi, ehtiyacı olan ailələrə birdəfəlik müavinətlərin verilməsi və s. kimi kampaniyaların reallaşdırılması analoqu olmayan addımlardır və bütün bunlar hazırda da davam etdirilir.

### Azərbaycanı qarşıda hələ daha böyük uğurlar və zəfərlər gözəyir

Biz bu günlərdə Prezident İlham Əliyevin yeni açılmış Modul tipli xəstəxananın açılışında iştirakını və ölkə səhiyyəsinin inkişafı və digər sahələrlə də bağlı irəli sürdüyü fikirlərini də xatırladaraq əminik ki, Azərbaycanı qarşıda hələ daha böyük uğurlar və zəfərlər gözəyir. Belə olan halda, dövlət başçımızın çağırışı ilə baş tutan Zirvə toplantıları hər bir azərbaycanlıda qürur və fərəh hissi oyadır. Bu görüşlər eyni zamanda siyasi cəhətdən də dövlətimizin mövqeyini önə sürməkdədir. Əlbəttə, əldə edilən uğurların əsas tərkib hissəsi pandemiyadan əvvəl ölkədə aparılan çoxşaxəli islahatlardır ki, bu islahatlar hətta hazırkı dövrdə də reallaşdırılmaqdadır.

### Yeni Azərbaycan Partiyası "Biz birlikdə güclüyük!" şüarı altında ehtiyacı olan ailələrə yardım kampaniyalarını uğurla davam etdirməkdədir

Əbəs deyil ki, dövlətimizin başçısı öz çıxışlarında daim vurğulayır ki, Onun üçün birinci növbədə vətəndaş faktoru dayanır və Prezident xalqının bir nömrəli xidmətçisidir. Əhalinin bütün təbəqələrinin sosial-məişət tələbatlarının həll olunması ilə yanaşı, ölkəmizdə gedən dinamik inkişaf və tərəqqinin nəticəsidir ki, bu gün Azərbaycan koronavirusla mübarizə aparan dövlətlər içində liderliyini sübut edir. Eyni zamanda, ölkəmiz bir neçə dövlətlərə humanitar yardımlar da göstərir.

O cümlədən, hakim Yeni Azərbaycan Partiyası "Biz birlikdə güclüyük!" şüarı altında ehtiyacı olan ailələrə yardım kampaniyalarını uğurla davam etdirməkdədir. YAP-ın bütün rayon və şəhər təşkilatlarının fəalları vətəndaşların, yaşlı insanların, ailələrin yardımına tələsir, kampaniyanın daha geniş sahəsini əhatə edirlər. Bu, eyni zamanda böyük həmrəyliyin bariz göstəricisidir!

### Korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizə aparılmaqdadır

Lakin bütün bunlarla yanaşı, təəssüflə qeyd etməliyik ki, xalqımız və dövlətimiz üçün çətin dövrdə koronavirus mühitindən yanlış yollarla yararlanmaq istəyənlər də tapılır. Belə ki, o da sirr deyil ki, Azərbaycanda bilavasitə Prezident İlham Əliyevin tapşırığı və nəzarəti ilə korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizə aparılmaqdadır. Yerlərdə fəaliyyət göstərən İcra Hakimiyyətləri və onların tabeçiliklərində olan ayrı-ayrı məmurlar dövlətin vətəndaşlara göstərdiyi maddi və s. yardımlarını mənimsəyib, xalqın haqqını tapdalayaraq sözün əsl mənasında Vətənə, dövlətə, xalqa xəyanət ediblər. Əbəs deyil ki, dövlətimizin başçısı İlham Əliyev cənabları bu günlərdə yeni fəaliyyətə başlayan növbəti Modul tipli xəstəxanadakı çıxışı zamanı barələrində həbs qərarı verilmiş sabiq icra başçılarını və onların əlaltılarını Vətən xaini adlandırdı. Bəli, bu məhz belədir və hazırda bu cür xəyanətkar əməllərlə, korrupsiya və rüşvətxorluqla, dövlətin, xalqın malını talamaqla məşğul olanlara edilən sərt xəbərdarlıqdır. Çünki xalqımızın lideri araşdırmaların davam etdirildiyini, bu addımların atılacağını da bəyan etdi.

Söz yox ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin qətiyyəti, uzaqgörənliyi və mühüm siyasi strategiyası nəticəsində xalqımız bu bəladan da üzüağ, qalibiyyətlə çıxacaq və ölkəmiz bir daha bütün dünyaya sübut edir ki, onun həmrəy xalqı, güclü dövlət başçısı və sarsılmaz xalq-iqtidar birliyi var!



# Dövlət Təhlükəsizliyi Xidməti Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin hüquqazidd əməlləri ilə bağlı məlumat yayıb

Azərbaycan xalqının mədəni-tarixi irsi hesab edilən tarix-mədəniyyət abidələrinin mühafizəsi, bəzi vəzifəli şəxslərin öz maraqları naminə bu sahədə dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərinin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin rəsmi internet səhifəsinə istinadla xəbər verir ki, aparılan araşdırmalarla Azərbaycan Respublikasının Mədəniyyət nazirinin müavini Bayramov Rafiq Yasin oğlunun və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol vermələrinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Rafiq Bayramovun və Zakir Sultanovun xidməti və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkarlanaraq götürülüb.

İstintaq araşdırmaları zamanı Azərbaycan xalqının çoxəsrlik mədəni irsi və sərvəti olan tarixi abidələrin və mədəniyyət nümunələrinin qorunması, bərpası, rekonstruksiyası və mühafizəsi üçün zəruri işlərin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin Zakir Sultanov tərəfindən müntəzəm olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Davam edən cinayət işi üzrə, mədəni irs hesab edilən xüsusi arxitektura-memarlıq üslubuna malik binalarda rekonstruksiya işlərinin aparılmasına maddi maraq müqabilində vəzifə səlahiyyətlərindən istifadə edərək razılıq verilməsi ilə bağlı əldə olunmuş məlumatlar araşdırılır.

Həmçinin araşdırmalar nəticəsində Rafiq Bayramov tərəfindən Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsilə rayonlarda fəaliyyət göstərən musiqi məktəblərində müəllimlərin adına artıq tədris saatlarının rəsmiləşdirilərək bunun müqabilində onların əməkhaqlarından tutulan vəsaitlərin, habelə müxtəlif qanunsuz yollarla əldə edilən digər vəsaitlərin hər ay toplanaraq ələ keçirilməsinə əsaslı şübhələr müəyyən olunub.

Respublika ərazisindəki musiqi məktəblərinin, mədəniyyət evlərinin, kitabxanaların, rəsm məktəblərinin, qalereyaların, klubların, muzeylərin və sair mədəniyyət müəssisələrinin tikintisi, cari və əsaslı təmiri işlərinə görə ayrılan dövlət vəsaitlərinin bir hissəsinin Rafiq Bayramov tərəfindən şəxsən və Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsilə müntəzəm olaraq nağdlaşdırılıb mənimsənildiyinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda araşdırmalar davam etdirilir.

# Xəyanətkar babasından Paşinyana "miras" qalan xüsusiyyətlər

Ermənilərin özləri, eləcə də Rusiyada müəyyən tədqiqatçılar aşkara çıxarıblar ki, II dünya müharibəsi dövründə Sovet İttifaqı ordusu sıralarına çağırılan ermənilərin ən azı 25-30 faizi ya könüllü , ya da qarşıdurma mövqeyində almanlara əsil düşüblər. Almanlara əsir düşdükdən sonra onlardan biri Qaregin Njdedir ki, hansı ki bu gün İrəvanın mərkəzində ona abidə ucaldılıb". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. O bildirib ki, Qaregin Njde erməniləri toplayaraq, onlardan döyüşçü dəstələri düzəltməyə başlayıb: " Hitlerlə görüşdükdən sonra dildən pərgər olan atasının kollektivləşmə dövründə var-dövləti əlindən alınan Qaregin Sovet ittifaqına nifrət etdiyi üçün almanların bütün Sovet İttifaqını işğal etməsində maraqlı idi: " O başına topladığı erməni legionerlərinə deyirdi ki, bu gün almanların apardığı müharibə həm də Ermənistan uğrunda aparılan müharibədir".



Politoloq söyləyib ki, Almaniya Hərbi Hava Qüvvələrinin tərkibinə daxil olan legionerlərin içərisində Ermənistanın baş naziri Nikol Paşinyanın babasının adının olduğu üzə çıxıb: "Bu faktı axtarıb tapanlar bildiriblər ki, Paşinyanın babası legionerlər dəstəsində arxa cəbhənin ehtiyacları üçün istifadə edilib. O tikinti işlərində çalışırmış. Yalnız müəyyən dövrdə Ukrayna cəbhəsində almanlar üçün çətin vəziyyət yarananda legionerlərin böyük hissəsi Nijdenin başçılığı altında Odessa ətrafındakı bölgələrə göndərilərək Sovet İttifaqına qarşı döyüşüblər".

Q. Hüseynli qeyd edib ki, Nikol Paşinyanın babası həmin döyüşlərdə həlak olub: "Onun həlak olması haqqında məlumatlar Alamniyanın faşizm dövründə məxsus arxivlərində aşkar edilərək saxlanılıb. Ermənistanın Müdafiə Nazirliyi Paşinyanın babasının adı ilə bağlı fikir irəli sürür ki, guya onun babasının doğulduğu kənddə eyni ad və soyada malik iki nəfər olub və almanlar tərəfinə keçən şəxs Paşinyanın babası olmayıb. Amma belə bir məlumat sovet ordusunun arxivində yoxdur".

# AXCP-dən AXCP-yə sərt ittiham XAİN!

*Razi Nurullayev: "Əli Kərimli ən sadiq insanları xəyanətkar adlandırdı, amma özünün xəyanətkar olduğunu unutdu, özünün səriştəsizliyi və yalanları ilə bütöv bir müxalifət cərgəsini dağıtdı"*

***Artıq bir neçə ildir ki, Əli Kərimlinin sədrlik etdiyi AXCP sıralarını tərk edən və alternativ AXCP yaradan, eləcə də partiyanın əsas möhür-ştampına iddialı olan Razi Nurullayev qarşı tərəfin ifşasını aparmaqda davam edir. Əslində, R.Nurullayevə qədər Ə.Kərimlini rədd edən digər sabiq cəbhəçilər də demək olar ki, eyni motivdən çıxış edərək onun yaramaz əməllərini, riyakarlıqlarını, şəxsi mənfəətlərinə görə insanlara böhtan və şər atmasını, təhqir elementləri vasitəsi ilə müəyyən qruplar tərəfindən hücumlar etdirməsi faktlarını ictimai rəyin diqqətinə çatdırıblar.***



Yəni bütün faktlar danılmazdır və əlbəttə ki, Ə.Kərimli onları nə qədər inkar etsə belə, həmin faktlar elə fakt olaraq da qalmaqdadır. Məhz bu baxımdan, R.Nurullayevin Ə.Kərimlinin ölkədə aparılan çoxşaxəli islahatlara qarşı açıq-aşkar anti-xalq, düşmənçilik mövqeyindən yanaşmasına qarşı irəli sürdüyü fikirləri kifayət qədər maraq doğurmaqdadır.

### "Mən neçə illər Əli Kərimlinin yanında oldum, ümid etdim ki, o dediyi kimi, tez bir zamanda hakimiyyətə gələcək və ölkə "süd gölü"ndə üzəcək"

Alternativ AXCP-nin sədri təəssüflə xatırlayır ki, o və onun kimi digər cəbhəçilər uzun illər Ə.Kərimlinin yalanlarına inanmaqla həyatlarının mühüm qisimlərini boş yerə xərcləyiblər, onun sərsəm, utopik vədlərinin qurbanı olublar. SİTAT: "Bizim müxalifət cərgəmizdə də uzun müddət etibar etdiklərimiz, inandıqlarımız, şüurlu ömrümüzü sərf etdiklərimiz də etibarsız çıxıb, illərlə etdiyimiz xidmətə bir qara qəpik qədər dəyər verməyiblər. Mən neçə illər Əli Kərimlinin yanında oldum, ümid etdim ki, o dediyi kimi, tez bir zamanda hakimiyyətə gələcək və ölkə "süd gölü"ndə üzəcək. Bilməliydim ki, belə bacarıqlı idisə AXC hakimiyyətini saxlayardı. O nə etdi? Ən sadiq insanları xəyanətkar adlandırdı, amma özünün xəyanətkar olduğunu unutdu, özünün səriştəsizliyi və yalanları ilə bütöv bir müxalifət cərgəsini dağıtdı".

Əslində, R.Nurullayev ziyanın yarısından qayıtmasının fərqinə varır və bu addımın da səmərəli olduğuna işarə edərək, bu gün Ə.Kərimlinin yanında var-gəl edən "aldadılmış kəvakiblərin" necə deyərlər "gözlərini açmağa" dəvət edir. Çünki fakt budur ki, "Yurd" şefi ilk növbədə "liderim" dediyi mərhum Əbülfəz Elçibəyə olmazın xəyanətlər edərək, demək olar ki, AXCP-ni qəsb edib. Bunun ardınca isə, həqiqi elçibəyçiləri oradan müxtəlif iyrənc əməlləri vasitəsi ilə uzaqlaşdırıb.

### "İndi aparılan islahatlara dəstək zamanıdır!"

Alternativ AXCP-nin sədri bu gün Ə.Kərimlinin dövlətçilik maraqlarına qarşı da əsl düşmənçilik etdiyini bildirir və onun xainliyini, satqınlığını açıq ifadələrlə təsdiq edir. Çünki Kərimlinin "siyasəti" uzaq başı çayxana masalarından, küçə təfəkküründən o tərəfə inkişaf etməyib. Ona görə də, müxtəlif dialoq mühitlərindən qaçır, buna gedənləri idə "xəyanətkar" adlandırır. Ancaq əslində gerçək xain islahatlara qarşı erməninçilik mövqeyi sərgiləyən Ə.Kərimli və onun yanyörəsidir.

"İndi aparılan islahatlara dəstək zamanıdır!", deyə ölkədə gedən uğurlara dəstək göstərdiyini ifadə edən R.Nurullayevə görə, artıq bu gün arzuladıqları zaman və şərait gəlib: "Prezident Azərbaycanı vətəndaşların görmək istədiyi tərzdə dəyişmək və inkişaf etdirmək yolunu tutub və ona dəstək olmamaq dövlətçiyinin əleyhinə olmaqdır. Heydər Əliyevin hakimiyyəti illərində indi də meydanda olan o zamankı müxalifətin mənasız dirənişi, dialoqdan imtinası və özlərini çəkib dağ başına qoyması bizi 25 il geri salıb".

### "Dəyişən Azərbaycanla dəyişmək istəyənlərin yoluna təkər fırlatmaq pis siyasətdir!"

Alrenativ AXCP-nin sədri ittihamlarını özünəməxsus tərzdə davam etdirməklə Ə.Kərimlinin 20 il onların başlarına hansı oyunları açmasını xatırladaraq, necə məşəqqətli günlər yaşadığını da deyib və qarşı tərəfin ittiham etdiyi şəxslərin adından bildirib ki, "Yurd" şefi ömrünü bu xalq yolunda sərf edənlərin, məşəqqətlər yaşayanların yenə də zülm içində qalmasını, 20 ildir bir kostyumda gəzən və onun yalanlarına inanıb mütiyə çevirdiyi insanların ömürlərini bu şəkildə başa vurmasını istəyir

"Neft ucuzlaşacaq və bu hakimiyyət gedəcək" kimi yalanlarınla yenə də o fədakar və avam adamları aldatmaqmı? Papiros tüstüsü ilə dolu kirli çayxanalarda ac-acına axşama kimi çay içib mədəsini xarab edib bu gün də hakimlərin qapısında gözləyib çarə tapa bilməyən sirdaşlarının ölməsimi?", deyə sual edən R.Nurullayev bir daha qeyd edib ki, Ə.Kərimlinin oyunbazlığı nə siyasi mübarizə, nə də siyasi dirənişdir, bu sadəcə siyasi klounada mənzərəsidir: "Bu siyasi mübarizə deyil, mənasız dirənişdir! Dəyişən Azərbaycanla dəyişmək istəyənlərin yoluna təkər fırlatmaq pis siyasətdir!"

***Rövşən NURƏDDİNOĞLU***

# Mais Səfərli: "Əli Kərimli və Cəmil Həsənli absurd fikirləri ilə insanları çaşdırmaq istəyirlər"

***Bəşəri bəlaya çevrilən pandemiyanın bütün dünyada, o cümlədən ölkəmizdə tüğyan etdiyi çətin bir dönəm də radikal müxalifət, xüsusilə də "Milli Şura" adlı qondarma qurum öz çirkin əməllərindən əl çəkmir, koronavirusa qarşı mübarizə prosesinə ən cəfəng iddialarla qara yaxmağa çalışır.***



"Yurddaş" Partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, pandemiyanın bütün bəşəriyyətə, o cümlədən ölkəmizə vurduğu zərbələr kifayət qədər təsirlidir: "Doğrudur, təhlükəli xəstəliyin regionumuza ayaq açdığı ilk gündən dövlətimizin rəhbərliyinin atdığı çevik və inamlı addımlar sayəsində epidemioloji vəziyyəti nəzarətə almaq mümkün olmuşdur. Burada söhbət təkcə insanların virusa yoluxmasının qarşısının alınmasından, infeksiyaya məruz qalmış vətəndaşlarımızın müalicəsindən, karantinə götürülmüş şəxslərə yaradılmış şəraitdən getmir. Epidemiya çoxsaylı iqtisadi, sosial problemlər yaratdı. İnsanların əmək fəaliyyəti iflic vəziyyətinə düşdü. Təsəvvür edin ki, birdən-birə 700 min muzdlu işçi müvəqqəti olaraq öz iş yerlərini bu səbəbdən itirmişdir. On minlərlə sahibkarlıq subyektləri böyük maliyyə zərərləri ilə üzləşdilər. Qeyri-formal sferalarda çalışan yüz minlərlə həmvətənlərimiz qazanc mənbəyindən məhrum oldu. Bir sözlə, böyük sayda insanımız çörəklə, qida ilə imtahana çəkildi".

M.Səfərli bildirdi ki, ağır vəziyyətin yaranmasına baxmayaraq dövlətimiz, onun lideri İlham Əliyev bir ailəni, tək bir nəfəri belə köməksiz qoymadı: "Ehtiyacı olan hər kəs bu gün dövlətin qayğısı altındadır. İqtisadi subyektlər, iş adamları hökumətin dəstək proqramları ilə əhatə olunmuş, vergi güzəştləri əldə etmişlər. Bütün bu məqsədlər üçün ölkə başçısının sərəncamı ilə 2 milyard dollar həcmində vəsait ayrılmışdır. Belə bir keşməkeşli fonda ölkəmizdəki bəzi siyasi qüvvələr, xüsusilə də radikal düşərgənin təmsilçiləri pandemiya əleyhinə milli mübarizəyə dəstək vermək əvəzinə, görülən işlərə kölgə salmağa çalışırlar. Bu arada hamının riayət etməyə borclu olduğu karantin rejiminin qaydalarını pozanları radikal qüvvələr sosial şəbəkələrdə az qala "siyasi məhbus", "haqqları pozulmuş insanlar" kimi qələmə verirlər. Koronavirusla mübarizəyə bircə qəpik belə ianə verməyən Ə.Kərimli, C.Həsənli və digərləri absurd fikirlər səsləndirməklə insanları çaşdırmaq istəyirlər. Xaricdən "YouTube", "Facebook" və s. sosial şəbəkələr vasitəsilə yayınlanan İnternet kanallarının "qəhrəmanlarına" çevrilən bu müxalifətçilər, obyektiv gerçəkliyi təhrif etməklə cəmiyyətdə narazılıqlar formalaşdırmaq, ümidsizlik sindromu aşılamaq, insanları radikallaşdıraraq öz tərəfdarlarına çevirmək və gələcək siyasi aksiyalarda onlardan istifadə etmək məqsədi güdürlər".

Partiya sədri qeyd etdi ki, hazırkı ağır şəraitdə pandemiyanın bəzi insanlarda yaratdığı sarsıntını və psixoloji durumu fürsət bilən radikal müxalifət onların hisslərini manipulyasiya etməklə, sosial şəbəkələrdə, özlərinin iddia etdikləri kimi, "tufan qoparmaq" istəyirlər: "Onların bu "tufanının" gücü isə, obrazlı desək, bir stəkan suda yarana biləcək "fırtınanın" ekvivalentində ola bilər. Başqa sözlə, normalda ictimai diqqəti çəkə biləcək gerçək kütləvi aksiya keçirmək gücündə olmayan bu adamlar virtual aksiyaların təşkil edilməsinin öhdəsindən heç gələ bilməzlər. Çünki, bu gün Azərbaycan cəmiyyəti öz dövlətinin, Prezidentin ətrafında həmişəkindən də daha sıx birləşib. Radikal müxalifətin keçirə biləcəyi virtual aksiyalar olsa-olsa, "frik şou" təəssüratı yarada bilər. Bunun nə demək olduğunu oxucularınız bilməmiş deyillər. Orta əsrlərdə Avropada küçə sirk ustaları kişilərə qadın paltarı geyindirib, məzhəkəyə qoyardılar və adamlardan pul toplayardılar". "Belə demək mümkündürmü müxalifətin virtual aksiyasının sifarişçiləri elə həmin "Köhnə Qitədədir" - Avropadadır" sualına cavab olaraq M.Səfərli bildirdi ki, bizim toplum yüksək savad səviyyəsinə malikdir, ağı qaradan çox yaxşı seçməyi bacarır: "Hər kəs yaxşı başa düşür ki, sözü gedən düşərgənin təmsilçiləri öz sözlərini demirlər, Qərbdəki himayədarlarının sifarişlərini yerinə yetirirlər. Sifarişçinin məqsədi isə Azərbaycanı xaosa sürükləmək, ölkədə vətəndaş qarşıdurması yaratmaq, Qarabağ məsələsini ermənilərin xeyrinə həll etmək üçün zəmin hazırlamaq , ölkəmizi müstəqil siyasi, iqtisadi kursdan sapdırmaqdır. Vətənini, millətini sevən azərbaycanlı bu dəllalların ardınca gedərmi? Təbii ki yox. Xalqımız onları çoxdan çıxdaş edib. Ölkəmizdə aparılan islahatların nəticəsində cəmiyyətimizdə formalaşan yeni siyasi münasibətlər sistemində də belələrinə yer yoxdur".

***Gülyana***

# BAŞ PROKURORLUQ: "Nazirliyin 13 vəzifəli şəxsi barəsində 8 cinayət işi məhkəməyə göndərilib"



Ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial problemlərin həlli, əhalinin aztəminatlı təbəqəsinin maddi vəziyyətinin yaxşılaşdırılması, sosial siyasət kimi strateji sferada idarəetmənin təkmilləşdirilməsi, əlçatanlıq və şəffaflığın təmin olunmasında mühüm irəliləyişlərə müvəffəq olunub. Baş Prokurorluğun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək neqativ amillərə, o cümlədən sosial təminat sistemində əhalinin daha həssas təbəqəsinin sosial-iqtisadi mənafelərinin müdafiəsinin gücləndirilməsi sahəsində korrupsiya hüquqpozmalarına və sui-istifadə hallarına yönəlmiş qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ictimaiyyətə açıqlanmış 2019-cu il üzrə hesabatında göstərildiyi kimi bu istiqamətdə ardıcıl və kəsərli tədbirlər görülməklə cinayət əlamətləri olan 28 xidməti araşdırma üzrə materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə Baş Prokurorluğa təqdim olunub. Qeyd edilən materiallar əsasında Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırmalar aparılmaqla 18 material üzrə cinayət işləri başlanmış, digərləri üzrə isə prokuror təsir aktları tətbiq edilməklə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülüb.

Başlanmış cinayət işləri üzrə 13 şəxs barəsində 8 cinayət işinin istintaqı tamamlanaraq müvafiq məhkəmələrə göndərilib, 10 cinayət işi üzrə istintaq araşdırmaları davam etdirilir. Məhkəməyə göndərilmiş cinayət işlərindən 2-i üzrə 4 şəxs barəsində ittiham hökmü çıxarılıb, 6 cinayət işi hazırda məhkəmələrin icraatındadır. Qeyd olunan işlər üzrə dövlətə vurulmuş külli miqdarda maddi ziyanın ödənilməsi istiqamətində müvafiq tədbirlər görülməklə hazırda icraatda olan cinayət işləri üzrə ziyanın ödətdirilməsi ilə bağlı zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial müdafiə sahəsində bu kimi cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verən neqativ halların qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində zəruri işlərin görülməsi bundan sonra da qətiyyətlə davam etdiriləcəkdir.

***Nigar Məmmədova***

# Bloger və siyasi bürokratlar

*Yaxud AXCP-Müsavat - tullantılar anbarında tozlanmış manekenlər məskəni*

***Bu gün adlarını "siyasətçi", "müxalifətçi" qoyan və AXCP-Müsavat partiyalarında 27 ildən çox müddət ərzində ancaq bir-birilərini qurşaqdan aşağı söyüşlər deməklə arxivə atıla-atıla xalqın nifrətini birə-on qat artıraraq tullantılar anbarında tozlanmış manekanlar məskanına çevrilməkdədirlər.***

Və elə bu gün pandemiyanın dünyanı ağuşuna aldığı bir zamanda da yenə də o tozlanmış tullantılar dövlətin apardığı uğurlu nəticələrə həmin sağlamaz viruslar - Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli ... və bu kimi satqınlar "sülaləsi"nin "evdə qal"a qarşı çıxaraq yalan və böhtanlarından əl çəkmirlər. Hər gün sosial şəbəkələrdən "çıxış yolu mitinq, mitinqdir" deyə-deyə xalqın əsəblərini gərildirlər. Çünki xalqımız AXCP-Müsavt "aktyorlarının" 27 ildir ki, hansı formada olurlarsa olsunlar satmağa öyrənmiş radikal müxalifət nümayəndələrinin "beşinci kolon"unun bu gün Azərbaycanda milli maraqları satmağa xidmət etdiyinin şahididirlər. Çünki məhz bu "beşinci kalon" aldığı sifariş əsasında Avropada baş vermiş maliyyə kredit, iqtisadi böhranından sonra bir sıra Avropa dövlətlərinin maraqlarının təmin olunması üçün bir növ onların Azərbycandakı təzyiq qrupu rolu və funksiyasını yerinə yetirir. Və baş verənlər göstərir ki, "beşinci kalon" koronavirusu özü üçün xoşbəxtlik kimi qəbul edir, Azərbaycan hakimiyyətinin uğurlu addımlarını isə, insanların guya hüquq və azadlıqlarının məhdudlaşdırılması kimi adlandırırlar. Lakin anlamaq lazımdır ki, Azərbaycan dövlətinin bu uğurul inkişafına qarşı heç bir qüvvə çıxa bilməz.

Çünki dövlətimiz üçün Azərbaycan vətəndaşının sağlamlığını hər şeydən üstün tutur. Prezident İlham Əliyev: "Bizim əsas məqsədimiz, ilk növbədə,



vətəndaşların təhlükəsizliyi, sağlamlığı və rifahıdır" deyərək bildirib ki, bütün qalan məsələlər ikinci dərəcəli məsələlərdir: "Bütün qalan məsələlər ikinci dərəcəli məsələlərdir, o cümlədən iqtisadi inkişafla bağlı olan məsələlər. Halbuki biz bu məsələlərə də mütləq lazımi fikir verməliyik. Çünki insanların həm sağlamlığı, həm rifahı, ümumiyyətlə, Azərbaycanda sosial sahədə əsas məsələlərdən biridir. İnsanların sağlamlığına aid olan bütün məsələlər bu gün Azərbaycanda öz həllini tapır və əsas məqsəd, bir daha demək istəyirəm ki, pandemiyanın miqyasını nəzarətdə saxlamaqdır. Biz, ilk növbədə, buna nail olmalıyıq. Bir daha demək istəyirəm ki, burada əsas amil vətəndaşların məsuliyyətidir".

Hafiz Hacıyev:

**"Əli Kərimli kimi mənəviyyatsız və satqın virusların qırılması daha yaxşıdır"**

Bu fikri Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev dünyanı ağuşuna alan koronavirus pandemiyasından istifadə edərək ölkədə sabitliyi pozmaq istəyən AXCP Əli Kərimlinin, Müsavat Partiyasının başqanı Arif Hacıyevin, "Milli Şura"nın əl kuklası Cəmil Həsənlinin, müxalifətin minsifətlisi, satqın Gültəkin Hacıbəylinin karantin zamanında da əsl simalarını göstərdiklərini bildirib: "Bu satqınlar həmişə satıblar, satılıblar. Onların məqsədi Azərbaycanda hamının qırılmasına çalışmaqdır. Bu nədən irəli gəlir? Sözsüz ki, Prezident İlham Əliyevin düşünülmüş siyasəti, uğurları. Bu satqın və əxlaqsızlara xalq nifrət edir, əlacları sosial şəbəkələr olur. Bir baxın, sosial şəbəkələrdən də xalq nifrətini bildirir. Bu satqın Kərimli Əli və AXCP sədrinin "əl kuklası", yaşına qiymət verməyən Cəmil Həsənli, minsifət Gültəkin Hacıbəyli... kimilər hələ də anlamırlar ki, xalq onları çoxdan arxivin zibilxanasına atıb. Çünki xalq ölkə başçısın hakimiyyətdə olduğu son 17 il ərzində hər bir vətəndaşın qayğısına qaldığının şahidi olub. Və bu gün xalq koronavirus pandemiyasından istifadə edərək ölkədə sabitliyi pozmaq istəyən bu satqın qüvvələrə, "beşinci kolon" satqınlarına xəbərdarlıq edərək tezliklə onların cəzalandırılması tələbini irəli sürürlər. Mən də bu çağırışa tərəfdar olaraq tələb edirəm: "Çünki bunlar -Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli kimi viruslar xaricdən idarə olunanlardır. Və ölkə başçısı onları "beşinci kolon" adlandırmaqla bir daha göstərdi ki, xalq bəlalərini çoxdan tarixin zibilxanalarına atıb. Bu virusların məqsədi Azərbaycanda hamının bu xəstəliyə tutulması və öz çirkin əməllərini həyata keçirməkdir. Ancaq Azərbaycan xalqı ağıllı xalqdır, ağı-qaradan seçməyi bacarır. Bu gün bizim düşmənlərimiz çoxdur, həm xaricdə, həm də ki, daxildəki belə naqislər Azərbaycan dövlətinə çox böyük zərbələr vurmağa çalışırlar. Biz bəlalərinə imkan verə bilmərik ki, bu ab-havanı dəyişsinlər və bu işlərin həyata keçirilməsi üçün bizə ciddi sabitlik lazımdır. Və satqınlara xəbərdarlıq edərək bildirirəm ki, çəkilib yerlərində otursunlar. Çünki birlik olan yerdə gücülü olursan. Və bu gücün qarşısında Vətənimiz, dövlətimiz daha da güclü olur".

***Rəfiqə HÜSEYNOVA***



## Tarix yalanı sevmir...

RƏFİQƏ

***Əslində bu gerçəklik həm də aksiomadır. Yəni lider xalqının maraqlarının təmin olunmasında xarizmatik keyfiyyətlərini ortaya qoymaqla həm də iradəsini nümayiş etdirir - millətinə, dövlətinə xidmət iradəsini... Bu tarixdir və tarixi geri qaytarmaq mümkün deyil, onu olduğu kimi qəbul etmək lazımdır. Çünki o, yalanı sevmir.***

Ancaq bu gün müxalifət düşərgəsi deyilən dağıdıcı bir məkanda özlərini "siyasətçi" adlandıran "liderlər"də nə siyasət, nə də əxlaq var və xüsusilə də, dünyanın bu gün koronavirusla mübarizə apardığı zamanda dağıdıcı düşərgənin "müxalifət" adlandıran satqın və quldurları isə sosial şəbəkələrdə heç bir dövlət rəhbərinin etmədiklərini ölkəmizin Prezidentinin etdikləri və bu nailiyyətlərə şər-böhtan yağdırmaqla Doğrudur, bu lənətlənənlər elə gönüqalıdırlar ki, 27 ildən çox müddətdir ki, arxivin zibilliklərində eşələnlər bütün tüpürcəkləri belə götürürlər. Çünki onlar özləri başdan-ayağa kimi çirkaba bulaşmış viruslardır, danışıqları da iyrəncdir, vücudları da! Nəticədə də nə cəmiyyət, nə də ictimai rəy bəlalərini qəbul etmirlər. Çünki onlar anlamırlar ki, siyasət heç də həmişə əxlaq peşəsi hesab olunmayıb. Bu yerdə ABŞ-ın tanınmış siyasətçilərindən birinin dediyi fikri xatırlamaq yerinə düşər: "Siyasətçi valideynlərini qətlə yetirən, sonra yetim olduğuna görə məhkəmədən aman gözləyən insana bənzəyir".

Dağıdıcı müxalifətin, nəinki bugünkü, ümumiyyətlə, atdığı bütün addımlar xaricdəki erməni lobbi təşkilatlarının və xaricdəki anti-Azərbaycan qüvvələrin fəaliyyəti ilə paralellik təşkil edir. Bu bədbəxt ünsürlər gecə-gündüz Azərbaycan dövlətinə və millətinə qarşı anti-təbliğat kampaniyası aparan erməni lobbisinin vasitəsinə çevrilməklə, məhz onların planı əsasında fəaliyyət göstəriblər. Artıq hər kəs bilir ki, dağıdıcı müxalifətin "mübarizə strategiyası" təkcə hakimiyyətə qarşı deyil, eyni zamanda, dövlətə, dövlətçiliyə, xalqa, bütövlükdə, Azərbaycanın müstəqilliyinə, varlığına və haqlı mücadiləsinə qarşı yönəlib. Əbəs yerə deyil ki, düşərgə "liderləri" zaman-zaman ermənilərə "qardaş" deyənləri daim müdafiə ediblər. Və ağı qara görmək, uğurlara kölgə salmaq, vətəni qrantlara satanlar bir dfaktı unudurlar ki, tarixi geri qaytarmaq, nə də onu silmək mümkün deyil.

# İqor Korotçenko: "Paşinyanın susqunluğu çoxlu suallar yaradır"

***Nikol Paşinyanın babası ətrafında qalmaqal və erməni baş nazirin Qaregin Njdeni müdafiə etməsi fonunda gözlənilməz susqunluğu çoxlu suallar yaradır. Trend-in məlumatına görə, bunu rusiyalı ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko Day.az-a müsahibəsində deyib.***

Onun sözlərinə görə, bu gün təkcə Böyük Vətən Müharibəsinin tarixini təkrar yazmaq cəhdləri ilə deyil, həm də faşistlərin və onların əlaltılarının qəhrəmanlaşdırılması ilə mübarizə məsələsi daha da aktuallaşır:

"Biz görürük ki, nasizmin qəhrəmanlaşdırılması bir sıra ölkələrdə, o cümlədən Ermənistanda fəal şəkildə davam edir. Fikrimcə, bu proseslərin əsasında həmin ölkələrdəki milli elitaların maraqlı ilə bağlı siyasət dayanır. Nasizm əlaltılarının qəhrəmanlaşdırılması problemi bu gün mövcuddur, onunla mübarizə aparmaq lazımdır və Böyük Vətən Müharibəsinin, İkinci dünya müharibəsinin tarixinin təkrar yazılması imkanlarının qarşısını almaq lazımdır.



Hər şey aydındır: anti-Hitler koalisiyası var idi, Hitler Almaniyası var idi və Hitler Almaniyasına kömək edənlər var idi".

Ekspert vurğulayıb ki, Rusiya və Azərbaycanın bu məsələdə mövqeyi üst-üstə düşür: nasistlərin qəhrəmanlaşdırılması və tarixin hansısa maraqlara uyğun təkrar yazılması qəbulolunmazdır.

İ.Korotçenko, həmçinin Ermənistan baş naziri Nikol Paşinyanın mərkəzində olduğu iri beynəlxalq qalmaqala da toxunub: "Vəziyyətin özü kifayət qədər qalmaqallıdır, rəsmi səviyyədə hələ də bir təkzib eşitməmişik və bu, təbii ki, suallar doğurur. Hesab edirəm ki, ilk növbədə erməni xüsusi xidmətlərinin reaksiyası olmalıdır. Niyə? Çünki, şübhə yoxdur ki, Paşinyan müxalifətdə olarkən, onu araşdırıblar. Aydındır ki, onun barəsində müvafiq dosye aparılıb. Sual olunur: hakimiyyət dəyişikliyindən sonra bu araşdırmanın axırı necə oldu? Dosye məhv edildi? Bəlkə, haradasa saxlanılır və Paşinyana qarşı təzyiq və hücum vasitəsi kimi istifadə oluana bilər? Qeyri-müəyyənlik bir çox suallar doğurur".

Ekspert vurğulayıb ki, N.Paşinyan hələ də ittihamlara cavab verməyib və əlavə edib ki, onun nasistlərin digər əlaltısı Qaregin Njdenin qəhrəmanlaşdırılmasını qətiyyətlə müdafiəsi daha çox sual doğurur:

"Bu qalmaqal Paşinyanın əlaltısına qoyulan abidəni müdafiə etmək cəhdləri ilə uyuşur. Njde barəsində hər şey aydındır. Onu həbs edən SMERŞ əkskəşfiyyat təşkilatının rəyi var, onun işi ilə bağlı sənədlər var və orada aydın şəkildə qeyd olunub: Qaregin Njde SSRİ ərazisində Qırmızı ordunun arxa cəbhələrinə göndərilməsi üçün təxribatçı dəstələr hazırlayırdı".

Baş redaktor bildirib ki, beləliklə də heç bir siyasi mübarizdən söz gedə bilməz, o, cinayətkardır: "Ən qəribəsi də odur ki, Ermənistan onu qəhrəmanlaşdırır. Xatırladım ki, Rusiyada da Moskvanı müdafiə etmiş və buna görə ali mükafatlarla təltif olunmuş, amma sonra Almaniya ilə əməkdaşlığa getmiş general Vlasov olub. Njde ilə olduğu kimi general Vlasov da xəyanətkar, cinayətkar elan olunmuş və edam edilmişdi. Amma bizdə heç kim onu qəhrəmanlaşdırmağa çalışmır. Mən, əlbəttə ki, erməni KİV-lərini oxuyuram və hər dəfə onlar yazanda ki, Azərbaycan tərəfi Njdedən Ermənistana qarşı hücumlar üçün istifadə edir, bu, məni təəccübləndirir. Əgər Hitler Almaniyasının rəhbərləri sırasına ermənilər, erməni əsilli şəxslər olsaydı, bu gün onları qəhrəmanlaşdıracaqdınız? Bunu necə başa düşmək olar? Njde cinayətkardır".

Rusiyalı ekspert Yerevanın mərkəzində Qaregin Njdeyə ucaldılan abidəni də xatırladıb: "Bu abidə hələ əvvəlki hökumətin dövründə ucaldılmışdı. Paşinyanın buna heç bir aidiyyəti yoxdur və o, həmin biabırçılığın sökülməsi barədə qərar verə bilərdi. Amma bu cür qərar qəbul olunmadı. Əksinə, Paşinyan onu müdafiə edir. Yerevanın mərkəzində nasist əlaltısına heykəl və yerli KİV-lərdə Paşinyanın babasının təsvirlərinə uyğun gələn şəxsin erməni legionunda döyüşməsi barədə məlumatlar müəyyən fikirlər yaradır və müəyyən suallar verməyə vadar edir".

# Ermənilər gürcülərin də mənəvi mədəniyyətini oğurlayırlar

***Cənubi Qafqazın gəlmə ünsürlərindən olan ermənilər Gürcüstana XIX əsrdə köçmələrinə baxmayaraq, gürcülərin tarixlərinə, kilsələrinə, mədəniyyətlərinə, ərazilərinə şərik çıxırlar. Görkəmli gürcü ziyalısı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində yaşayıb-yaratmış, "millətin atası" hesab olunan knyaz İlya Çavçavadze 1902-ci ildə Tiflisdə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" əsərində hələ XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa, Qafqazda "ayaq tutub yeridiyin"dən, onların əsassız "Böyük Ermənistan" iddialarından bəhs edir: "İş ondadır ki, onlar (ermənilər) sözlə, qələmlə bütün dünyaya bəyan edib, and içirlər ki, guya əsrlər boyu Qafqaz sıra dağlarından Fərat və Dəclə çaylarının mənsəbinədək Ermənistan adlanan ölkə olmuşdur. Onlar həmin yerləri Samxetiya, daha doğrusu somex-haykanların (ermənilərin) ölkəsi adlandırlar".***

İ.Çavçavadze yazırdı ki, ermənilər gürcülərə yuxardan baxır, onları rusvay edir, bu xalqı milli ləyaqətdən məhrum etməyə, bir millət kimi Yer üzündən silməyə çalışırdılar.

Ermənilər "bizim bütün tariximizi, salnamələrimizi, tarixi abidələrimizi, qanla qazandığımız hər şeyi, xristianlıq qarşısında xidmətlərimizi, bizə məxsus olan hər nə varsa hamısını, bizim tarixi sərvətlərimizi məhv edir, müxtəlif yalan yollarla öz adlarına çıxırlar".

Ermənilər saxta tarix "yaradaraq" guya qədim dövrlərdən Cənubi Qafqazda yalnız erməni millətinin mövcud olduğunu, burada gələcəyin yalnız onlara məxsus olduğunu bütün dünyaya "sübut etməyə" cəhd edirlər. Onlar özlərinin fiziki və mənəvi güclərini guya saxta tarixlə "təsdiq etmişlər".

İ.Çavçavadze gürcülərin mənəvi və fiziki mövcudluğunu inkar edən, özündən razı ermənilərə qarşı çıxaraq yazırdı: "Bu erməni qrupunun maskalarını yırtmaq vaxtıdır. O ermənilərin ki, istisnasız olaraq biz gürcülər haqqında saysız-hesabsız dedi-qodular, yalanlar yayırlar". Ermənipərəst rus yazıçısı "Baron Brambeys" təxəllüslü Senkovski hələ 1838-cu ildə yazırdı: "VI Vaxtanqa qədər gürcülərin salnamələri yox idi, hətta gürcülərin özləri XII əsrədək mövcud olmamışlar. İverlər adı altında müxtəlif dağlıq tayfaları məlum idi Kür çayının arxasında indi Tiflisin yerləşdiyi ərazilər və Gürcüstanın böyük hissəsi əsrlər boyu ermənilərə məxsus idi. Burada ermənilər, midiyalılar, massagetlər və ya türklər, albanlar məskunlaşmşdılar".

İ.Çavçavadze Senkovskinin Tiflis də daxil olmaqla Gürcüstanın böyük bir hissəsinin ermənilərə məxsus olduğu fikrini alt-üst edir. Senkovskinin bu mülahizələrinin "erməni alimlərindən" gəldiyini, onların Gürcüstanın ancaq pis tərəflərini gördüklərini, gürcülərdən daha çox şey qoparıb mənimsədiklərini sübut edir. Gürcü müəllifi erməni yazıçıları Eminov, Xuabaşov və Yeritsovun yuxarı Kartalinyaya daxil olan Çorox, Samsxe-Slatabaqonu heç vaxt mövcud olmayan xəyali "Böyük Ermənistan"a daxil etdiklərini bildirir. Lakin İ.Çavçavadze həmin bölgələrdə gürcü toponimlərinin mövcudluğunu, "bu yerlərdə gürcülərin yaşadıqlarını VII-VIII əsrlərdən XIV əsrlərədək məbədlər, monostrlar tiktiklərini, indi də onların mövcud olduğunu" göstərir. Ermənilər o vaxtdan indiyədək gürcülərin məbədlərini, monastrlarını, kilsələrini mənimsəyirlər. XIX əsrdə İran və Türkiyədən Cənubi Qafqazın aborigen əhalisinin-azərbaycanlıların və gürcülərin əsrlər boyu məskunlaşdıqları Azərbaycana və Gürcüstana köçürülən ermənilər çox keçmədən yerləşdikləri ərazilərə əsassız iddialar irəli sürdülər. İ.K.Kanadsev yazır: "Məlum olduğu kimi, ermənilər Türkiyə və İran ərazilərindən müxtəlif vaxtlarda Gürcüstana köçürülmüşlər... Gürcülər xristianlara xas olan xeyirxahlıq və ürəklə onları qəbul edib öz torpaqlarınzda məskunlaşdırmışlar".

Ermənilər sələmçiliklə, aldatma və fırıldaqçılıqla onlara yurd-yuva vermiş gürcülərə vicdansızlıqla kələk gəlməklə çoxlu var-dövlət sahibi oldular. Buna görə təsadüfi deyildir ki, Vaxtanqın qanunlarında belə ifadələrə rast gəlmək olur: "Lakin yunanlar və alçaq ermənilər arasında tənələr də əsaslıdır". Var-dövlət, kapital əldə edən ermənilər Tiflisdə binaları ələ keçirməyə başladılar. Sənədlərin birində yazılır: "Beləliklə, ermənilərin əllərinə çoxlu binalar keçdi. Hələ Zadəgan küçəsi və Qolovinski prospektindəki binaların, ümumiyyətlə, Tiflisdəki ən yaxşı küçələrdəki evlərin hamısı gürcülərə məxsus olduğu halda, indi onlar ermənilərin mülklərinə çevrilirdi." Ermənilərin məqsədlərinə çatmaq üçün istifadə etdikləri əsas vasitələr saxtakarlıq, yalan və aldatmadır. Onlar Gürcüstandakı abidələrdən, məbədlərdən kilsələrdən gürcü izlərini, gürcü yazılarını silərək "erməniləşdirmişlər".Digər bir üsul gürcülərdən bəhs edən qədim salnamələrin məhv edilmə-sidir. Onlar "Kartlis-Sxobreba" kimi gürcü tarixi mənbəyini məhv etmək istəmişlər, onu "erməni xronikası" kimi təqdim etmişlər. Erməni "alimləri" və ermənipərəst Qərb və rus "professorları" Strabonun hələ qədimdən gürcülərin Cənubi Qafqazda məskunlaşmalarından bəhs edən əsərləri, Pəhləvi sanskrit dilində yazılmış "Vus-Raxiani" kimi qədim salnamələri, XI-XII əsrlərdə Qurucu David və Tamaranın hakimiyyəti illərində Gürcüstanın çiçəkləndiyini "görmürlər".

İ.Çavçavadze qeyd edir ki, təəssüf ki, professor Patkanov kimi erməniпərəst "tədqiqatçılar" "Vepsis-Tkaosani" ilə tanış olmadıqlarını bəyan etməklə birtərəfli qaydada gürcü tarixinin qədimliyini şübhə altına almağa cəhd edirlər. İ.Çavçavadze bununla bağlı olaraq yazır: "Halbuki Jan Sen-Marten, Vibien-de-Sen Marten, Dübua de Monpere kimi məşhur, görkəmli alimlər aydın bir şəkildə bildirirlər ki, gürcü tarixi salnamələri yalnız Qafqazın deyil, Asiyanın tarixi üçün də mənbə kimi diqqəti cəlb edir".

Gürcülərin bu yerlərin qədim sakinləri olduqları barədə tanınmış alimlərin fikirlərini saxta erməni "tədqiqatçı"ları inkar edirlər. İ.Çavçavadze ermənilərin Avropa qəzetlərinə Gürcüstanda nə varsa hər şeyin, hətta Gürcüstanın qədim şəhəri Tiflisin də erməni şəhəri olduğu haqqında yalan məlumatları ötürdüklərini göstərir. Gürcü yazıçısı yazır ki, fransız "Temps" qəzetinin Gürcüstana ezam olunmuş Kutuli adlı müxbiri ilə Vladiqafqazda görüşən Şuşalı artilleriya zabiti olan bir erməni onu Tiflisə gətirir. Çox ehtimal ki, yolda onun müxbirə nələri, hansı yalanları danışdıqları heç kəsə məlum deyildir. Zabit onu "Mşak" qəzetinin mərhum redaktoru Artsurinin yanına gətirir. Kutuli onu "liberal partiyalardan birinin başçılarından biri, erməni müqəddəs yazılarını patriarxın özündən yaxşı bilən bir şəxs kimi" səciyyələndirirdi. Artsurini Kutulini Tiflis şəhər dumasına aparır, ona "kiçik parlament üzvlərini" "nazir" kimi təqdim edir, bütün erməni kilsələrini gəzdirir, sonra isə bu xarici qonağı erməni məktəblərilə tanış edir. Artsuruni onu erməni ziyalı dairəsinə də, məbəd mərasiminə də aparır. Fransız qonaq heyran qalır: burada hər şey ermənilərindir: "parlament" ermənininindir, kilsələr, bayramlar, filosoflar, yeməklər ermənininindir, bir sözlə, Tiflisdə hər şey ermənininindir. Aydındır ki, bura Ermənistandır, Tiflis də Ermənistan şəhəridir.

Beləliklə, ermənilər Avropa müxbirini inandırırdılar ki, Tiflis də daxil olmaqla Gürcüstan- Ermənistandır. Bu xəbər bütün dünyada "Temps" kimi nüfuzlu bir qəzet vasitəsilə yayıldı Kutuli "Cənubi Qafqazda dörd millətin-ermənilərin, gürcülərin, tatarların (azərbaycanlıların-V.Ö.) və rusların yaşadıqlarını göstərirdi. Onu inanmağa məcbur edirdilər ki, Tiflis-Ermənistandır, lakin təkcə Tiflis deyil, guya bütün Zaqafqaziya (Cənubi Qafqaz-V.Ö.) ermənilərə məxsusdur; onlar bu arzularını həyata keçirməyə çalışırdılar. Kutulinin erməni dostları onu Zaqafqaziyada - bütün Cənubi Qafqazda erməni millətinin üstünlüyündən yazmağı və bunu bütün Avropaya yaymağa məcbur edirdilər. Guya ticarət də, bütün sənətlər də, ictimai həyatın bütün sahələri də ermənilərin əllərindədir. Onlar həkim, vəkil, azad peşə sahibidirlər. Onların Tiflisdə öz məktəbləri, jurnalları, kiçik parlamentləri vardır. Hazırda (XIX əsr-XX əsrin əvvəlində-V.Ö.) onlardan çoxu hərbi xidməti yerinə yetirirlər. "Mədətov, Bebutov, Arqutinski, Loris-Məlikov, Lazerev, Alxazov, Ter-Qukasov - bu generallar guya rus ordusunu erməni millətinin nümayəndələri kimi təmsil və təmin edirdilər".

Elm və incəsənət sahəsində "ad qazanmış" "məşhur ermənilər" əslində heç kəs tərəfindən tanınmırdılar. Şişirdilmiş, saxta məlumatlardan ruhlanan Kutuli belə bir peyğəmbərlik iddiasına düşür: "Qafqazın gələcəyi ermənilərə məxsusdur, qonşu gürcülər və tatarlara (azərbaycanlılara) isə erməniləşməkdən başqa bir şey qalmır".

İ.Çavçavadze yazır ki, biz əminik ki, ağlı başında olan heç bir erməni belə düşünə bilməz. O, daha sonra qeyd edir: "Tutaq ki, Kutulinin peyğəmbərliyi özünü doğrultdu: gürcülər və tatarlar erməniləşdi, ermənilərin qullarına çevrildilər. Axı bu, 30 milyonluq erməni dövləti təşkil etmək üçün bir damla olacaq! Artsurini bu qədər təbəəni haradan yığmağı vəd etmişdi? Bu sualın cavabını mərhum "filosof" yəqin ki, özü ilə qəbirə apardı".

Beləliklə, ermənilərin saxta məlumatları əsasında hələ XIX əsrdə Avropada belə təsəvvür yaranmışdı ki, Gürcüstanda, Tiflisdə xalqın fəxr edə, qürurlana biləcəyi heç nə yoxdur. Onlara erməni generalı Kişmişov da qoşulmuşdu. Hətta ölümün-dən sonra onun nəşr olunmuş əsəri "Gürcüstan çarlığının son günləri" adlanırdı. Halbuki İ.Çavçavadzenin tarixi mənbələrə əsaslanaraq qeyd etdiyi kimi, Gürcüstanda İraklinin çarlığı zamanı parçalanmış Kartalaniya, Kaxeti, İmereti də birləşmək ərəfəsində idi. Hətta ermənilərin nisbətən daha çox cəmləşdiyi İrəvan bölgəsi (Azərbaycan ərazisi-Ö.V.) də ona vergi ödəyirdi. Doğrudur Ağa Məhəmməd şah Qacar Gürcüstan üzərində qələbə çaldıqdan sonra İraklinin hakimiyyəti bir qədər zəifləmişdi. Digər erməni müəllifi Q.A.Yezovun "Böyük Pyotrun erməni xalqı ilə əlaqələri" adlı əsərində də Gürcüstan və gürcü xalqı təhqir edilirdi. O, Gürcüstanı İranın xanlıqlarından birinin tərkib hissəsi hesab edirdi. Onun zəhərli, acı, saxta fikirlərlə dolu əsərində guya ermənilərin gürcüləri məhv olmaqdan qoruyan "xilaskar" olduqları göstərilirdi. Bu əsərdə gürcülərə qarşı kobud, hiyləgər, qeyri-elmi yanaşmalar baş alıb gedirdi. Halbuki, məşhur Avropa səyyahları Şarden, eləcə də Bodenştedt öz əsərlərində Azərbaycan türklərini və gürcüləri ermənilərə nisbətən daha ləyaqətli, hörmətli, qonaqpərvər, igid və qorxmaz, öz azadlıqları və müstəqillikləri uğrunda fədakar mübarizlər kimi səciyyələndirmişlər.

Bodenşdetd yazır ki: "Gürcülərin hamısı bu ölkədə mənəviyyatlı, saf, Qafqazın digər xalqları kimi qonaqpərvər, qılıncları kimi etibarlı, insanları müharibələrdə əsil cəngavərlər idilər....".

XX əsrin əvvələrində Gürcüstanda yaşayan ermənilərin gürcülərə qarşı ideologiyası və təcrübəsi daha da gücləndi. Erməni şovinistləri gürcü mədəniyyətinin, təhsilinin əleyhinə mübarizə aparırdılar, gürcü tarixini saxtalaşdırırdılar, öz rus həmkarları ilə birlikdə gürcü dilini təhqir və təhrif etməyə çalışırdılar. "Qaya" jurnalı 1912-ci ildəki altıncı sayında Acarıstanda xalqın təhsil-təlim vəziyyəti haqqında yazı dərc etdi. Ter-Qasparyans adlı bir erməni gürcü məktəblərində gürcü müəllimlərini azad edir və onların əvəzinə Qarabağ və İrəvan ermənilərini dəvət edirdi.

Gürcülərlə danışanda o, həmişə söhbətə bu sual ilə başlayırdı: "Hansı millətdənsən?". Ter-Qasparyansın özbaşnalığı o qədər həddini aşdı idi ki, Qafqaz təhsil dairəsi qəyyumunun əmri ilə onu işdən azad etdilər. "Qaya" jurnalı sonda yazırdı: "Gürcü xalqının təhsilində erməniləşmə - ancaq bu hiyləgər "vətənpərvərlər"in günahı idi və biz dərindən əminik ki, "erməniləşmə" rus hakimiyyətinin vasitəsi kimi Qafqaz təhsil dairəsinin idarəsində mövcud deyildir". Qoridə ermənilər Akakiya Seretelinin Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" mövzusuna aid mühazirəsini pis vəziyyətə salmağa çalışırdılar. Onlar açıq və ya gizli şəkildə gürcü dilinə qarşı mübarizə aparırdılar. Tiflisdə çıxan erməni mətbuatı açıq-aydın gürcülər əleyhinə təbliğat aparırdı. Gürcüstanda erməni şovinistləri Qafqaz qubernatoru Voronsov-Daşkovun dəstəyi ilə "öz milli işini təşkil edirdilər".

1913-cü il oktyabrın 13-də Tiflisdə onlar erməni əlifbasının yaradıcısı Mesrop Maştotsun 1500 illik yubileyini təntənəli şəkildə qeyd etdilər. Vank kilsəsində kilsə xidmətinə erməni yepiskopu başçılıq edirdi. Kilsənin hasarları içində bütün Tiflis erməni-qriqoryan ruhaniləri katalikosa səylə dua edirdilər. Eyni gündə Nerses adına seminariya da açıldı. Yepiskop toplantını açdı və rus imperatoru II Nikolaya xeyir-dua dilədi. İştirakçılar ayağa qalxdılar və üç dəfə "erməni seminariyasının şagirdlərinin xorla ifa etdiyi "Allah, çarı qoru" duasını dinlədilər.Qafqazda erməniпərəst siyasətin həyata keçirilməsində və tətbiqində çarın Qafqaz qubernatoru Voronsov-Daşkov öz həyat yoldaşı qrafinya Voronsova-Daşkova ilə birlikdə böyük rol oynamışdır. Ermənilər bütün xalqalrın tarixlərini, adət-ənənələrini, adlarını, soyadlarını oğurlayırlar. Əsrlər boyu ermeni-lər kiçik Asiya, Qafqaz, o cümlədən Azərbaycan və Gürcü mədəniyyətlərini məhv etmiş, erməniləşdirmişlər. Öz cinayətlərini ört-basdır edərək bütün bəşəriyyəti aldadaraq ermənilərin bir çox nəsilləri iki məsələ üzərində səylərini birləşdirmişlər:

a) "bu regionun bütün tarixinin saxtalaşdırılması;

b) tarixin oğurlanması ilə yanaşı bu xalqların mənəvi dəyərlərinin, mədəniyyətlərinin mənimsənilməsi"

Onlar gürcülərin iki ilahi əsərini birincisi - "Kartli Sxoverba", ikincisi, "Mahnılar Mahnısı"nın İppolit şərhinin gürcü mətnini tərcümə edərək erməniləşdirmişlər.

**_VAHİD ÖMƏROV_**
**_Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

**Son səhifə**

13 may



## Məşhur aktrisanın 1 milyonluq bağ evindən inanılmaz kadrlar

***Dünya şöhrətli aktrisa Kelli Bruk karantin günlərini bir milyon funt sterlinqlik möhtəşəm bağ evində keçirir. Xarici mətbuat xəbər verir ki, aktrisa karantin günlərindən fotolarını sosial şəbəkədə mütəmadi olaraq paylaşır. Bruk XV əsr üslubunda tikilmiş evi 10 il əvvəl alıb. Kino ulduzunun sözlərinə görə, fermada darıxmaq mümkün deyil, o, vaxtının çoxunu ağac və bitkilərin qulluğuna, tərəvəzlərin yetişdirilməsinə həsr edir:***

"Sevdiyim işlə məşğul olmaq yaşına çatmışam. Bağçılıq həqiqətən ehtirasdır. Əvvəllər pis oğlanlarla görüşən qlamur qız olduğumu düşünürdülər. Ancaq heç vaxt belə olmayıb. Əsl Kelli bağda bitki, tərəvəz əkən və bundan zövq alan bir qızdır. Bu, həyatımın ayrılmaz bir parçasıdır"./publika.az



## "Barselona" bu futbolçuya 50 milyon avro qiymət qoydu!

"Barselona" satmağa hazırlaşdığı futbolçusu Nelson Semeduya qiymət qoyub. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, Kataloniya klubu portuqaliyalı müdafiəçini 50 milyon avroya satmağı planlaşdırır. Onunla "İnter", "Mançester Siti", "Bavariya" və PSJ-nin maraqlandığı bildirilir. Qeyd edək ki, Semedunun "Barselona" ilə müqaviləsi 2022-ci ilin iyununda başa çatır.

## Madonna koronavirusa qalib gəldi



Tanınmış amerikalı müğənni hər kəsi təəccübləndirəcək paylaşım edib. Publika.az xəbər verir ki, ifaçı İnstaqram səhifəsində Parisdəki konsertindən sonra koronavirusa yoluxduğunu bildirib. COVİD-19 testindən keçən Madonnanın analiz cavabları müsbət çıxıb. Hazırda infeksiyaya qalib gəldiyini söyləyən pop ulduz, koronavirusdan əziyyət çəkən xəstələrə qan verməyə hazır olduğunu deyib.

## Azərbaycanın Avroliqa təmsilçilərinin sayı azala bilər

2020/21 mövsümündə Azərbaycan Avropa Liqasında 3 deyil, 2 komanda ilə təmsil oluna bilər. Qol.az-ın əldə etdiyi xəbərə görə, koronavirus pandemiyası səbəbindən təqvimdə yaranacaq sıxlığı nəzərə alan UEFA Avropa Liqasında təsnifat mərhələlərini qısaltmaq haqda da düşünür. Bu halda Azərbaycan da daxil olmaqla yarışa təsnifat mərhələlərindən başlayan ölkələrin komanda sayı ixtisar ediləcək. Əgər qərar qəbul edilsə, Azərbaycanın Avroliqaya 3 yox, 2 komanda ilə qatılacaq.

Hazırda UEFA-nın milli federasiyalarla apardığı müzakirələrdə bu variant da təklif edilib. Həmin variant isə yalnız növbəti bir mövsümə aiddir. Çempionlar Liqasının təsnifat mərhələsinin ləğvi ilə bağlı xarici KİV-lərin yaydığı xəbərlər isə UEFA tərəfindən təkzib edilib.

## Alimlərdən ŞOK açıqlama:
## Göz yaşı koronavirus daşıyıcısıdır...

Amerikalı alimlərin apardığı tədqiqatlar nəticəsində koronavirusun göz-yaşı vasitəsilə ötürülə biləcəyi ortaya çıxıb. Bu barədə "MedRxiv" məlumat yayıb. Con Hopkins Universitetinin Tibb Məktəbinin mütəxəssisləri müəyyən ediblər ki, gözün səthi yalnız virusun giriş nöqtəsi hesab edilən ACE-2 zülalından deyil, eyni zamanda TMPRSS2 fermentindən ibarətdir. Eyni hüceyrədə sözügedən zülal və fermentin olması virusun inkişafı üçün yetərli şəraiti təmin edir. "Əgər göz infeksiyaya yoluxarsa, bu orqanın özü virus daşıyıcısına çevrilə bilər. Bu zaman gözyaşı virusun ötürülməsi üçün vacib mexanizmə çevrilir", - hesabatda deyilir.

## Karantin dövründə nə yemək faydalıdır?



İmmuniteti gücləndirmək üçün göyərti, qatıq və mal qaraciyəri yemək faydalıdır. Bu barədə "RİA Novosti"yə Rusiya Federasiyası Prezident Administrasiyasının 1 nömrəli Klinikasının dietoloqu Vera Şaroşkina məlumat verib: "Sağlamlığımızı və immunitetimizi təmin edən "super qidalara" diqqət yetirmək istəyirəm - bunlar ənənəvi mətbəxlərdə olan məhsullardır: C vitamini və antioksidantla zəngin olan kərəviz, həmçinin qatıq və çay göbələyi. Faydalı xassələrinə görə mal qaraciyərinə daha çox üstünlük verin". Həkim onu da əlavə edib ki, süfrədə hər gün göyərti olmalıdır, eyni zamanda yeməzdən əvvəl meyvə-tərəvəzləri yumaq vacibdir./oxu.az

## "Messini yalnız dayanacaqda avtomobildə görürəm"

"Barselona"nın futbolçusu Jerar Pike koronavirusun qarşısını almaq üçün qaydalara ciddi riayət etdiklərini deyib. Qol.az xəbər verir ki, "El Mundo Deportivo"ya danışan ispan müdafiəçi komanda yoldaşları ilə əlaqələrinin çox az olduğunu deyib: "Çünki biz müxtəlif yerlərdə məşq edirik, hətta bir-birimizi görmürük. Messi ilə telefonda danışıram, amma onun məşq etdiyini görməmişəm. Onu yalnız dayanacaqda bir avtomobildə görürəm".

## Başsağlığı

AMEA Qadınlar Şurasının sədri Rəna Mirzəzadə və Qadınlar Şurasının üzvləri AMEA-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ağahüseyn Şükürova oğlu

**Nuran Şükürovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin***

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**